RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 156 (10176) 29 avqust 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## ICESCO qarşıdakı illərdə Azərbaycanla səmərəli tərəfdaşlığı dərinləşdirməyi inamla gözləyir



### Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Zati-aliləri!

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından və öz adımdan Zati-alinizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, təşkilatımızın Sizin dəyərli şəxsiyyətinizə və ortaq ideallarımıza sarsılmaz sadiqliyinizə dərin hörmətini bir daha təsdiqləyirəm.

İyirmi ildir ki, Siz ICESCO-nun dəyərli xoşməramlı səfiri olaraq sivilizasiyalar arasında dialoq, ortaq irsimizin qorunması və islam dünyasında uşaqların və qadınların rifahı ilə bağlı işlərimizə real dəstək vermisiniz. Bu, həm də Sizin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti kimi öz ölkəniz üçün gördüyünüz böyük işləri əks etdirir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və həyatınızı həsr etdiyiniz nəcib məqsədlərə çatmaqda tükənməz güc arzulayıram. ICESCO Zati-alinizin ruhlandırıcı rəhbərliyi ilə qarşıdakı illərdə Azərbaycanla səmərəli tərəfdaşlığı dərinləşdirməyi inamla və minnətdarlıqla gözləyir.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Səlim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***



# Əbədi müstəqillik, güclü dövlətçilik

## 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul olunub

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Əfsuslar olsun ki, müstəqilliyin ilk illərində (1991-1993-cü illər) idarəetmədəki səriştəsizlik və siyasi xaos bəyannamə prinsiplərinin reallaşmasını əngəllədi. Hakimiyyət uğrunda amansız mübarizə və xəyanətkar addımlar torpaqlarımızın işğalını, müstəqilliyin itirilməsi təhlükəsini şərtləndirdi. Ölkəni uçurumun kənarına gətirən bu dərin siyasi böhran milli dövlətçiliyi qorumaq üçün təcrübəli və qətiyyətli Liderin proseslərə müdaxiləsini tarixi zərurətə çevirdi. Belə məqamda xalqın təkidi və yekdil iradəsi ilə baş tutan siyasi dönüş ölkənin taleyində köklü dəyişiklik yaratdı. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə Azərbaycan tarixinin işıqlı səhifələri yazıldı. Proseslər göstərir ki, Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsəydi, ölkəmiz müstəqilliyini yenidən itirə bilərdi. Müdrik rəhbər zəngin idarəçilik təcrübəsi, siyasi dünyagörüşü ilə Azərbaycan dövləti və xalqı üçün ölçüyəgəlməz işlər görərək onun gələcək əsrlərə üzüağ, alnıaçıq çıxmasını təmin etdi. 1995-ci ildə referendum yolu ilə ilk milli Konstitusiyanın qəbulu isə insan hüquqları, şəxsiyyətin toxunulmazlığı və mətbuat azadlığının təmin olunması ilə hüquqi dövlət quruculuğunun təməlini qoydu.

Ulu Öndər müstəqilliyin etibarlı təməlini yaratdı. Ümummilli Liderin siyasi kursu və dövlətçilik konsepsiyası bu gün Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla inkişaf etdirilir. Həyata keçirilən institusional islahatlar, modernləşmə xətti və iqtisadi müstəqilliyin güclənməsi Azərbaycanın müstəqillik təməllərini daha da gücləndirib, sarsılmaz edib. Bu məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tarixi Zəfər əldə olundu və torpaqlarımız azadlığa qovuşdu. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri isə separatçılığa son qoyaraq ölkəmizin bütün ərazisində suverenliyin tam bərpasını təmin etdi. Hazırda işğaldan azad edilmiş ərazilərdə icra olunan "Böyük qayıdış" proqramı, genişmiqyaslı infrastruktur layihələri müstəqil dövlətin iqtisadi-güc potensialının real nümayişidir.

3

## Bakıda AQEM Qadınlar Şurasının ilk iclasını təşkil etmək təşəbbüsünü səmimi-qəlbdən alqışlayıram



### Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Zati-aliləri, hörmətli Mehriban xanım!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi, möhkəm cansağlığı, xoşbəxtlik və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz uzun illər öz fəaliyyətinizdə insanların rifahını yaxşılaşdıran, qarşılıqlı anlaşmanı təşviq edən və cəmiyyətləri bir-birinə yaxınlaşdıran təşəbbüslərə xüsusi diqqət yetirmisiniz. Bu davamlı fəaliyyət Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Asiyada dialoqu, etimadı və daha güclü birliyi inkişaf etdirməklə bağlı qarşıya qoyduğu məqsədlərə uyğundur.

Məhz bu ruhda mən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrlik edən Azərbaycanın bu il Bakıda AQEM Qadınlar Şurasının ilk iclasını təşkil etmək təşəbbüsünü səmimi-qəlbdən alqışlayıram. Bu, bizim ortaq səylərimizin daha da zənginləşdirilməsi və yeni imkanların yaradılması baxımından əhəmiyyətlidir.

Bu əlamətdar gündə Sizə ailənizin və yaxınlarınızın dəstəyi ilə qarşıdakı illərdə bütün səylərinizdə davamlı uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Kayrat SARIBAY,***
***Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi***

## *Prezident İlham Əliyevin siyasi uzaqgörənliyinin növbəti təzahürü:* Köçəryan-Sarkisyan tandeminin mühakiməsi

Prezident İlham Əliyevin strateji uzaqgörənliyinin regional təsirləri Azərbaycanın liderliyi ilə formalaşan sülh gündəliyinin məntiqi ilə tam səsləşir. Digər tərəfdən, Ermənistanın daxildə cilalanmaya məruz qalması hüquqi məsuliyyətin ölçü vahidlərini də böyüdə bilər.

Qarabağ klanının liderlərinin legitimliklərinə dair düşüncələrin iflası illərlə erməni cəmiyyətinə aşılanan ideologiyanın dağılmasını əsaslandıracaq gedişatdır. Prezident İlham Əliyevin illər öncə səsləndirdiyi fikirlər və apardığı qətiyyətli siyasətə maneə yaratmağa çalışan keçmiş xuntaçılar bu gün tarixi ədalətin zərbəsi altındadırlar.

3

## Azərbaycan-Rusiya münasibətləri süni şəkildə gərginləşdirilir

### Qonşu ölkədə bəzi dairələrin dövlətimizi hədəf alan təxribatları və informasiya hücumları bunun göstəricisidir

Ölkəmizin bu xarici siyasət kursunun tərkib hissəsi olaraq, Rusiya Federasiyası ilə münasibətlər də uzun illər boyunca mehriban qonşuluq və strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilib. 22 fevral 2022-ci il tarixində iki ölkə arasında imzalanmış "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Bəyannamədə göstərilir ki, Rusiya və Azərbaycan öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar.

4

## ŞƏT-in növbəti sammitində hansı məsələlər müzakirə olunacaq




Azərbaycan Prezidenti İlham Əliyevin ŞƏT-in Zirvə görüşlərində fəxri qonaq qismində iştirakı artıq ənənə halını alıb. Dövlətimizin başçısı 2022-ci ilin sentyabrında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Səmərqənd Sammitində, 2024-cü ilin iyulunda isə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Astanada keçirilən "ŞƏT plyus" Zirvə görüşündə iştirak edib. Səmərqənd Sammitində çıxış edən dövlətimizin başçısı 44 günlük Vətən müharibəsində əldə olunan Qələbədən sonra regionda nəqliyyat və kommunikasiya infrastrukturunun inkişafı üçün yeni imkanların yarandığını, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər artırılacağını diqqətə çatdırıb.

Ölkəmizlə Çin Xalq Respublikası arasında sürətlə inkişaf edən strateji münasibətlər Azərbaycanın ŞƏT ilə əlaqələrinə də birbaşa müsbət təsir göstərir. 2025-ci ilin aprelində Prezident İlham Əliyevin Çinə növbəti dövlət səfəri və ÇXR Sədri Si Cinpin ilə görüşü zamanı imzalanmış "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" ikitərəfli əlaqələrdə yeni tarixi səhifə açıb. Dövlətimizin başçısı 2025-ci ildə Çində keçirilən ŞƏT Sammitində iştirak edib.

4

## *Dezinformasiya və süni intellekt:* həqiqətin müdafiəsi uğrunda yeni mübarizə

Araşdırma göstərib ki, saxta xəbərləri avtomatik aşkarlamaq üçün yaradılmış süni intellekt sistemlərinin yüksək dəqiqlik göstəriciləri onların real informasiya mühitində də eyni dərəcədə etibarlı işlədiyi anlamına gəlmir. Etalon mətnlər üzərində 98-99 faizə çatan nəticə real şəraitdə tamamilə başqa mənzərə yarada bilər. Burada diqqətçəkən əsas məqam ondan ibarətdir ki, bəzi sistemlər xəbərin məzmununun həqiqətə uyğun olub-olmamasından daha çox onun hansı üslubda yazıldığına diqqət yetirirlər. Başqa sözlə, sistem müəyyən hallarda informasiyanın özünü yox, onun təqdimetmə formasını "tanıyır".

5




## ***İki ölkə, bir yol:*** Özbəkistandan Azərbaycan üzərindən Avropaya çıxış

Danılmaz faktdır ki, Azərbaycan-Özbəkistan münasibətləri indi yeni məzmun qazanaraq daha geniş əməkdaşlıq müstəvisinə keçib. İki ölkə arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafında nəqliyyat və tranzit əməkdaşlığı da mühüm yer tutur. Nəqliyyat bağlantıları ölkələr arasında ticarət və iqtisadi münasibətlərin inkişafına, eləcə də regionlararası əlaqələrin genişlənməsinə xidmət edir. Məhz bu kontekstdə hər iki ölkə arasında logistika və tranzit əlaqələrinin inkişafı bütövlükdə regionun iqtisadi və geosiyasi inteqrasiyasından dolayı mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Mərkəzi Asiya və Azərbaycan böyük potensiala, eyni zamanda bundan da böyük inkişaf imkanlarına malik vahid geosiyasi və geoiqtisadi regiondur. Bu böyük, hətta



deyərdim ki, yenidən yaradılmış və artıq kifayət qədər inteqrasiya olunmuş regionun inkişafının ümumi müsbət dinamikası da bu halda Özbəkistan və Azərbaycan arasında sıx qarşılıqlı əlaqələrdən asılıdır".

6

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 261** **Bakı şəhəri, 27 avqust 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin vəsatəti əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41 (Cild I); 2025, № 4 (II kitab), maddə 415; 2026, № 2, maddə 186) ilə təsdiq edilmiş "Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"na 6 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyət göstərdikləri müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərin siyahısı"na aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 8. | İran İslam Respublikası |

2. Bu Qərar 2026-cı il 1 mart tarixindən tətbiq edilir və 2026-cı il 31 dekabr tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Türkiyənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü Bakıda qeyd olunub





**Avqustun 28-də Türkiyənin Azərbaycandakı səfirliyi ölkəsinin Zəfər bayramı və Silahlı Qüvvələr Günü münasibətilə rəsmi qəbul təşkil edib. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.**



Daha sonra Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Prezident Rəcəb Tayyib Ərdoğanın 30 Avqust - Zəfər bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Çıxış edən səfir Birol Akgün 30 Avqust - Zəfər bayramının Türkiyə tarixində xüsusi əhəmiyyət daşıdığını bildirib. O, İstiqlal müharibəsinin Baş Komandanı Qazi Mustafa Kamal Atatürkü, onun silahdaşlarını, qəhrəman ordunun əsgərlərini və mübarizədə iştirak edən xalqın bütün nümayəndələrini ehtiramla yad edib.

Səfir qeyd edib ki, türk tarixində avqust qələbələr ayı kimi yadda qalıb. O, 1071-ci ildə Malazgirt döyüşündən başlayan və 1922-ci ildə Dumlupınarda Böyük Taarruzun qələbəsi ilə davam edən tarixi yolun türk xalqının əzmkarlığının və mübarizə ruhunun göstəricisi olduğunu vurğulayıb.

Birol Akgün Türkiyənin müasir dövrdə də sülh və sabitliyə üstünlük verdiyini diqqətə çatdıraraq deyib: "Qlobal sistemdə artan qeyri-müəyyənliklər və bölgəmizdə davam edən münaqişələr fonunda Türkiyə çəkindirici hərbi gücə malik olmağın zəruriliyini dərk edir. Bununla belə, Türkiyə hər zaman sülhün və sabitliyin tərəfdarıdır".

Səfir bildirib ki, Türkiyə başda BMT olmaqla beynəlxalq platformalarda vasitəçilik və xoşməramlı təşəbbüslərini bundan sonra da davam etdirəcək. O, Qazi Mustafa Kamal Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipinin Türkiyənin xarici siyasətində mühüm yer tutduğunu vurğulayıb.

Sonra Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edib. Müdafiə naziri Azərbaycan-Türkiyə münasibətlərinin möhkəm təmələ söykəndiyini vurğulayıb. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı və Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" prinsipi iki qardaş ölkə arasındakı münasibətlərin əsasını təşkil edir.

Zakir Həsənov Azərbaycan və Türkiyə arasında strateji müttəfiqlik münasibətlərinin müdafiə və təhlükəsizlik sahəsində də uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn əlaqələr çərçivəsində müdafiə qurumları arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyub.

Nazir bildirib ki, ötən il Türkiyədə iki ölkənin müdafiə qurumları arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair anlaşma memorandumu imzalanıb. O, müasir təhlükə və çağırışlar fonunda müdafiə potensialının artırılmasının vacibliyini qeyd edib.

"Bu gün müdafiə qurumlarımız arasında əməkdaşlıq öz dövrünün ən yüksək səviyyəsini yaşayır. Əməkdaşlığımız ildən-ilə genişlənir, yeni təşəbbüslər irəli sürülür", - deyə Zakir Həsənov vurğulayıb.

Müdafiə naziri Azərbaycan Ordusunda Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğun olaraq hərbi, hərbi təhsil və hərbi-texniki sahələrdə islahatlar aparıldığını bildirib. O, iki ölkənin müxtəlif qoşun növlərinin iştirakı ilə mütəmadi birgə hərbi təlimlər keçirdiyini, bunun orduların peşəkarlığının və qarşılıqlı uzlaşmasının artırılmasına mühüm töhfə verdiyini deyib.

Hərbi təhsil sahəsində əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirən Zakir Həsənov hazırda Türkiyənin hərbi təhsil və təlim müəssisələrində çoxsaylı azərbaycanlı hərbi qulluqçunun təhsil aldığını qeyd edib və yaradılan şəraitə görə qardaş ölkəyə təşəkkürünü bildirib.

O, hərbi-texniki əməkdaşlığın da sürətlə inkişaf etdiyini, Türkiyənin hərbi sənaye şirkətlərinin Azərbaycanın müdafiə potensialının gücləndirilməsinə əhəmiyyətli töhfə verdiyini diqqətə çatdırıb.

Müdafiə naziri çıxışının sonunda Azərbaycan və Türkiyənin müstəqilliyi və təhlükəsizliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsini ehtiramla yad edib və qardaş Türkiyəni Zəfər bayramı və Türk Silahlı Qüvvələri Gününün 104-cü ildönümü münasibətilə təbrik edib.

Rəsmi qəbulda dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

# Polşanın Azərbaycandakı səfiri XİN-ə çağırılıb

**Polşa Respublikasının Azərbaycan Respublikasındakı səfiri Pavel Radomski Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə avqustun 26-da Polşanın ictimai yayım orqanı olan TVP-nin (TVP World) "Eastern Express" verilişində Azərbaycan əleyhinə yayımlanmış süjetdə Azərbaycan dövlətinə və ölkə rəhbərliyinə qarşı yönəlmiş qərəzli, qeyri-obyektiv və tamamilə qəbuledilməz iddiaların yer alması, habelə veriliş zamanı aparıcının təxribat xarakterli davranışı ilə bağlı kəskin etiraz bildirilib, bununla əlaqədar qarşı tərəfə etiraz notası təqdim edilib.

Azərbaycanla Ermənistan arasında normallaşma və sülh prosesi, eləcə də Azərbaycanın regionda davamlı sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi istiqamətində qətiyyətli səylər göstərdiyi bir vaxtda həqiqəti təhrif edən məlumatların yayılmasının Azərbaycan tərəfində sual doğurduğu diqqətə çatdırılıb.

Polşa hökuməti tərəfindən maliyyələşdirilən ictimai yayım orqanında Azərbaycana qarşı mənfi xarakterli məzmunun yayımlanması ölkələrimiz arasında mövcud tərəfdaşlıq ruhuna zidd olan və ikitərəfli münasibətlərə ciddi zərər vurmaq potensialına malik qeyri-dost addım kimi qiymətləndirilib.

Polşa tərəfi Azərbaycanı hədəf alan bu cür təxribatçı kampaniyaların dayandırılması istiqamətində təxirəsalınmaz və təsirli tədbirlər görməyə çağırılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova İkinci Parlamentlərarası Spikerlər Konfransına videomüraciət ünvanlayıb

**Milli Məclisin Sədri Sahibə Qafarova Kamboca Krallığının Pnompen şəhərində keçirilən "Sülh və ümumi rifah naminə həmrəylik: Beynəlxalq hüququn gücləndirilməsi və münaqişələrin sülh yolu ilə həlli" mövzusuna həsr olunmuş İkinci Parlamentlərarası Spikerlər Konfransına videomüraciət ünvanlayıb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker müraciətində 2025-ci ildə yaradılmış gənc parlament təşkilatı olan Parlamentlərarası Spikerlər Konfransının parlament liderləri üçün açıq və effektiv platforma kimi inkişafını davam etdirəcəyinə inamını ifadə edib. O, bu təşkilatın parlament diplomatiyasının inkişafına və bu konfransın mərkəzində duran məqsədlərə - sülh, beynəlxalq hüquqa hörmət, münaqişələrin sülh yolu ilə həlli və ümumi rifaha effektiv töhfə verə biləcəyinə əminliyini bildirib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, bu məqsədlər indiki vaxtda xüsusilə aktualdır. Silahlı münaqişələr, geosiyasi gərginliklər və humanitar böhranlar insan həyatını təhlükə altına qoyur, inkişafa mane olur və bərabərsizliyi dərinləşdirir. Heç bir ölkə təkbaşına davamlı sülhü təmin edə bilməz və heç bir cəmiyyət təcrid şəraitində çiçəklənə bilməz.

Sülhün beynəlxalq hüquqa əsaslanmalı olduğunu vurğulayan Milli Məclisin Sədri qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin prinsiplərinə ardıcıl olaraq hörmət edilməli, mübahisələr dialoq, danışıqlar və digər sülh vasitələri ilə həll edilməlidir.

Videomüraciətində parlamentlərin bu prosesdə praktiki məsuliyyətinə toxunan spiker Sahibə Qafarova parlament diplomatiyasının bu gərginliyi azalda, inamı gücləndirə və mübahisələrin sülh yolu ilə həllinə töhfə verə biləcəyinə inamını bildirib, tədbir iştirakçılarına uğurlar arzulayıb.

***"Azərbaycan"***

# DTX-nin "Bilgəh" istirahət mərkəzində Vətən müharibəsi iştirakçıları ilə görüş təşkil edilib

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) "Bilgəh" istirahət mərkəzində Vətən müharibəsi iştirakçıları ilə ənənəvi görüş keçirilib.**



Bu barədə AZƏRTAC-a DTX-nin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, əvvəlcə qonaqlar mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olub, DTX-nin əməkdaşlarının övladlarının rəsmlərindən ibarət sərgiyə tamaşa ediblər.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən və Dövlət Himni səsləndirildikdən sonra tədbirin rəsmi hissəsi açıq elan olunub.

Çıxış edənlər dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qətiyyətli sərkərdəliyi, yenilməz Azərbaycan Ordusunun rəşadəti və əzmi sayəsində 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərdən, eləcə də dövlət suverenliyinin bərpası ilə nəticələnən antiterror əməliyyatlarından ətraflı danışıblar. Əldə olunmuş tarixi Qələbənin hər bir azərbaycanlıda sonsuz iftixar və qürur hissi oyatdığı, bunun gələcək nəsillərə əsl qəhrəmanlıq nümunəsi kimi ötürüləcəyi xüsusi vurğulanıb.

Eyni zamanda Vətən müharibəsindən ötən illər ərzində ölkəmizin reallaşdırdığı mühüm layihələrin, eləcə də işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinin xalqımızın gücünü və iradəsini bütün dünyaya bir daha nümayiş etdirdiyi diqqətə çatdırılıb.

Rəsmi hissədən sonra tanınmış incəsənət xadimlərinin vətənpərvərlik mövzusunda musiqi nömrələri ilə davam etdirilən tədbir xatirə fotoşəkillərinin çəkilməsi ilə başa çatıb.

# Azərbaycan və Belarus Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb

**Avqustun 28-də Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov Belarusda səfərdə olub.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, səfər çərçivəsində nazir müavini Belarusun xarici işlər naziri Maksim Rıjenkov ilə görüşüb.

Görüş zamanı iki dövlət arasında strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər müzakirə olunub. Azərbaycan və Belarus arasında dostluq münasibətlərinə söykənən strateji tərəfdaşlıq əlaqələrinin inkişafında iki ölkə liderlərinin rolu xüsusi vurğulanıb.

Daha sonra Azərbaycan və Belarus Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Samir Şərifov, Belarus tərəfindən isə xarici işlər nazirinin müavini Pavel Utyupin rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi dialoqun müsbət dinamikası vurğulanıb, həmçinin Hökumətlərarası Komissiyanın və siyasi məsləhətləşmələr mexanizminin vacib rolu qeyd edilib.

Eyni zamanda əldə olunmuş razılaşmaların icra vəziyyəti, habelə ticarət-iqtisadi, energetika, kənd təsərrüfatı, humanitar və digər qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə edilib.

Bununla yanaşı, regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət məsələləri nəzərdən keçirilib.

Məsləhətləşmələr çərçivəsində qarşılıqlı maraq kəsb edən digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# *Səfir:* "Pakistan Azərbaycanın strateji mövqeyindən böyük fayda əldə edə bilər"

**"Daha səmərəli avtomobil və dəmir yolu bağlantılarının xüsusilə Şimal-Cənub dəhlizi boyunca inkişaf etdirilməsi regionun bütün ölkələri üçün oyunun qaydalarını dəyişə bilər. Pakistanın əla infrastruktura malik Qvadar və Kəraçi dəniz limanları bütün Mərkəzi Asiya və Cənubi Qafqaz üçün təbii qapı rolunu oynaya bilər. Pakistan həmçinin Azərbaycanın Asiyanı Avropa ilə birləşdirən Şimal-Cənub və Orta dəhlizlərin qovşağı kimi strateji mövqeyindən böyük fayda əldə edə bilər".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Pakistanın ölkəmizdəki səfiri Qasım Mouhiddin söyləyib.

Onun sözlərinə görə, Qvadar Azərbaycandan və Mərkəzi Asiyadan beynəlxalq bazarlara göndərilən yüklərin daşınması üçün də mühüm mərkəzə çevrilə bilər.

"Pakistanın logistika şirkətləri artıq müxtəlif marşrutların səmərəliliyini qiymətləndirmək üçün texniki-iqtisadi əsaslandırma işləri aparıb və sınaq daşımaları həyata keçiriblər. Ümid edirik ki, regionda təhlükəsizlik vəziyyəti yaxşılaşdıqca bu mühüm istiqamətdə, o cümlədən investisiya sahəsində əməkdaşlıq sürətlə yeni dinamika qazanacaq. Məqsəd yalnız nəqliyyat əlaqələri yaratmaq deyil. Əsas məqsəd Pakistanı Azərbaycan, Mərkəzi Asiya və Avropa bazarları ilə daha səmərəli şəkildə birləşdirəcək etibarlı, kommersiya baxımından dayanıqlı və davamlı ticarət dəhlizləri formalaşdırmaqdır", - deyə diplomat əlavə edib.

# Əbədi müstəqillik, güclü dövlətçilik

## 1991-ci il avqustun 30-da "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul olunub

**Azərbaycanın müasir dövlətçilik salnaməsi xalqımızın azadlıq iradəsini və sarsılmaz mübarizə ruhunu əks etdirən son dərəcə zəngin, mürəkkəb və şərəfli bir yoldur. Bu şərəfli yolun həlledici mərhələsindən biri XX əsrin sonlarında müstəqilliyin hüquqi və siyasi müstəvidə bəyan edilməsi idi. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamənin qəbul olunması ölkənin suverenlik salnaməsində ən mühüm dönüş nöqtələrindən birinə çevrildi.**



1918-1920-ci illərdə Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin varisliyini rəsmən bəyan edən bu hüquqi sənəd, həmin ilin oktyabrında qəbul ediləcək Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının siyasi və mənəvi bünövrəsini təşkil etdi.

Hadisələrin təhlili göstərir ki, müstəqilliyə gedən yol geosiyasi şəraitin təsadüfi töhfəsi deyil, xalqımızın azadlıq naminə başlatdığı mübarizənin, istiqlal mücadiləsinin qanunauyğun nəticəsidir. Azərbaycanda dövlət müstəqilliyi yolunda həlledici proseslər isə Heydər Əliyevin Azərbaycana qayıdışından sonra başladı.

Ulu Öndərin 1990-cı ilin Qanlı Yanvar faciəsindən sonra Moskvadan Bakıya, daha sonra Naxçıvana qayıdışı milli azadlıq hərəkatının yeni müstəviyə keçməsinə zəmin yaratdı. 1990-cı il sentyabrın 30-da Heydər Əliyevin həm Azərbaycan SSR, həm də Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçilməsi müstəqilliyə gedən yolun ilk real mərhələsi kimi tarixə düşdü.

Məhz Ulu Öndər Heydər Əliyevin qətiyyəti ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin tarixi sessiyasında muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması və ali qanunverici orqanın Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması sovet imperiyasının strukturunda köklü hüquqi dəyişikliyin əsasını qoydu. Həmin sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvanın dövlət bayrağı kimi qəbul edilməsi və bu milli rəmzin bütün respublika miqyasında təsdiqlənməsi təşəbbüsü ilə çıxış edilməsi ideoloji dönüş nöqtəsi oldu. Eyni zamanda 1990-cı il noyabrın 21-də 20 Yanvar faciəsinə ilk siyasi-hüquqi qiymətin verilməsi imperiya rəhbərliyinin cinayətkar məsuliyyətinin bəyan edilməsi baxımından mühüm addım idi.

Müstəqillik mövzusu və bu istiqamətdə addımlar Ülu Öndərin bütün çıxışlarının əsasını təşkil edirdi. Xüsusən Azərbaycan Ali Sovetinin iclaslarında Heydər Əliyev bütün çıxışlarında Azərbaycanın dövlət müstəqilliyinin qaçılmaz proses olduğunu bəyan edirdi. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyasındakı çıxışında Heydər Əliyev mövcud ictimai-siyasi vəziyyəti dərindən təhlil edərək respublikanın gələcək müstəqilliyi və dövlətçiliyi ilə bağlı aydın mövqeyini nümayiş etdirdi. Ali Sovetin 1991-ci il martın 7-də keçirilən sessiyasında Heydər Əliyev Azərbaycanın milli müstəqilliyi və suverenliyi məsələsinə toxunaraq, müstəqilliyə çatmağın yollarını, əsas vasitələrini, demokratik dövlət quruculuğunun prinsiplərini göstərdi.

Sovet imperiyasını saxlamaq məqsədilə keçirilən referendumda və Ali Sovetin iclaslarında Heydər Əliyevin prinsipial mövqe nümayiş etdirməsi imperiya cəhdlərini neytrallaşdırdı. Ali Sovetdəki tarixi çıxışlarında Heydər Əliyev respublika rəhbərliynin imzalamağa hazırlaşdığı ittifaq müqaviləsinin Azərbaycan üçün tam yararsızlığını yeni ittifaqa daxil olmağın və bunun üçün hər hansı referendum keçirməyin əleyhinə çıxdığını bildirirdi.

Sonrakı hadisələr göstərdi ki, Azərbaycanın müstəqil, demoktatik dövlət qurmasının zəruriliyi haqqında Heydər Əliyevin uzaqgörən bəyanatları, bunu əsaslandıran siyasi baxışları öz işini görmüş, gələcək proseslərin gedişinə həlledici təsir göstərmişdi. O dövrdə proseslərin gedişatı göstərirdi ki, respublika rəhbərliyi müstəqil və demokratik dövlətçilik hərəkatının qarşısında tab gətirmək iqtidarında deyil. 1991-ci il avqustun 30-da Ali Sovetin növbədənkənar sessiyasında müstəqilliyin bərpası haqqında bəyannamənin qəbul edilməsi bu həqiqəti bir daha təsdiqlədi. Həmin dövrdə Heydər Əliyev bu sənədi dəstəkləyərək bəyan etdi ki, Azərbaycan Respublikası bəyannamə ilə kifayətlənməməli, özünün tam milli dövlət müstəqilliyini əldə etməlidir.

1991-ci il oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi. Əfsuslar olsun ki, müstəqilliyin ilk illərində (1991-1993-cü illər) idarəetmədəki səriştəsizlik və siyasi xaos bəyannamə prinsiplərinin reallaşmasını əngəllədi. Hakimiyyət uğrunda amansız mübarizə və xəyanətkar addımlar torpaqlarımızın işğalını, müstəqilliyin itirilməsi təhlükəsini şərtləndirdi. Ölkəni uçurumun kənarına gətirən bu dərin siyasi böhran milli dövlətçiliyi qorumaq üçün təcrübəli və qətiyyətli Liderin proseslərə müdaxiləsini tarixi zərurətə çevirdi. Belə məqamda xalqın təkidi və yekdil iradəsi ilə baş tutan siyasi dönüş ölkənin taleyində köklü dəyişiklik yaratdı. 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışı ilə Azərbaycan tarixinin işıqlı səhifələri yazıldı. Proseslər göstərir ki, Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə gəlməsəydi, ölkəmiz müstəqilliyini yenidən itirə bilərdi. Müdrik rəhbər zəngin idarəçilik təcrübəsi, siyasi dünyagörüşü ilə Azərbaycan dövləti və xalqı üçün ölçüyəgəlməz işlər görərək onun gələcək əsrlərə üzüağ, alnıaçıq çıxmasını təmin etdi. 1995-ci ildə referendum yolu ilə ilk milli Konstitusiyanın qəbulu isə insan hüquqları, şəxsiyyətin toxunulmazlığı və mətbuat azadlığının təmin olunması ilə hüquqi dövlət quruculuğunun təməlini qoydu.

Ulu Öndər müstəqilliyin etibarlı təməlini yaratdı. Ümummilli Liderin siyasi kursu və dövlətçilik konsepsiyası bu gün Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla inkişaf etdirilir. Həyata keçirilən institusional islahatlar, modernləşmə xətti və iqtisadi müstəqilliyin güclənməsi Azərbaycanın müstəqillik təməllərini daha da gücləndirib, sarsılmaz edib. Bu məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tarixi Zəfər əldə olundu və torpaqlarımız azadlığa qovuşdu. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri isə separatçılığa son qoyaraq ölkəmizin bütün ərazisində suverenliyin tam bərpasını təmin etdi. Hazırda işğaldan azad edilmiş ərazilərdə icra olunan "Böyük qayıdış" proqramı, genişmiqyaslı infrastruktur layihələri müstəqil dövlətin iqtisadi-güc potensialının real nümayişidir.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi milli inkişaf strategiyası və sarsılmaz dövlətçilik təməlləri Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı regional və qlobal miqyasda söz sahibinə çevrilmiş qalib dövlət statusuna ucaltdı. Suverenliyini bərpa edən respublikamız bu gün təkcə Cənubi Qafqazın hərbi-siyasi lideri deyil, həm də qlobal enerji, nəqliyyat və diplomatiya xəritəsinin mühüm aktoru kimi çıxış edir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*



# Prezident İlham Əliyevin siyasi uzaqgörənliyinin növbəti təzahürü: Köçəryan-Sarkisyan tandeminin mühakiməsi

**Ermənistanda keçmiş prezidentlər Robert Köçəryan və Serj Sarkisyanın öz orduları haqqında formalaşdırdıqları məğlubedilməzlik mifi hələ 2016-cı ilin Aprel döyüşləri ilə dağılmışdı. Daha sonra Ermənistan cəbhə xəttində qopmuş, dağılmış hissələri birləşdirməyə çalışmaqla "sındırılmış tabunu bərpa etməyə" çalışdı. Lakin Ermənistan ordusunun işğalçılıq doktrinasını yerinə yetirə bilməməsi 2020-ci il iyul ayındakı Tovuz döyüşlərində bir daha özünü göstərdi.**

Ardınca isə vaxtilə Qarabağda və Ermənistanda xunta rejimi qurmuş Köçəryan-Sarkisyan ikilisinin əsasını qoyduğu ordu məğlubiyyəti bütün mənası ilə yaşadı. Azərbaycan Silahlı Qüvvələrinin sürətli əks-hücum əməliyyatları ilə torpaqların işğaldan azad olunması prosesi, keçilməz hesab olunan eşelonların tez bir zamanda yarılması Köçəryan-Sarkisyan ikilisi üçün ağır məğlubiyyət oldu.

Prezident İlham Əliyev hələ 2020-ci ilin noyabrında Füzuli şəhərində çıxışı zamanı bildirmişdi: **"Biz Ermənistan Ordusunu çökdürdük. Eyni zamanda Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik".**

Prezident İlham Əliyev sonrakı çıxışlarında da eyni mövqeni vurğulayıb.

Məhz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş hərbi əməliyyatlar, o cümlədən 2023-cü ildəki antiterror tədbirləri regiondakı reallıqları dəyişdirdi. Antiterror əməliyyatları Köçəryan-Sarkisyan cütlüyünün "tabutuna" sonuncu mismarı vurmaqla onların və erməni ideologiyasının digər banilərinin regionda yaratdıqları separatçılığı tamamilə məhv etdi.

## Köçəryan və Sarkisyanın mühakiməsi

Regionda intonasiyaların dəyişməsi, işğal dövrünün praqmatik əməkdaşlıqla əvəzlənməsi bir yandan da Ermənistan ictimai-siyasi və intellektual mühitində transformasiya yaradır.

Ermənistanda avqustun 25-də başlanan istintaq hərəkətlərinin nəticəsi olaraq:

*- Keçmiş prezident Robert Köçəryanın həbsinə qərar verilməsi,*

*- Serj Sarkisyanın ölkədən çıxışına qadağa qoyulması qeyd olunan məntiqin bir hissəsi kimi görünür.*

Qeyd edək ki, keçmiş prezidentlər Robert Köçəryan və Serj Sarkisyanın rəhbərlikləri dövrlərinə dair ciddi maliyyə mənimsəmələri və hakimiyyətin güc yolu ilə qorunması ittihamları hüquqi səviyyədə qiymətləndirilir. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin müdrikliyi, qətiyyəti və əzmi ilə regionda formalaşmış yeni reallıqların və bir neçə il əvvəl verdiyi bəyanatların fonunda xüsusilə diqqət çəkir. Başqa sözlə, Köçəryanla Sarkisyana qarşı başlanmış cinayət təqibləri Prezident İlham Əliyevin irəli sürdüyü proqnozlara uyğundur.

Baş verənlər hələ Köçəryanla Sarkisyanın Azərbaycana qarşı cinayətlərdə iştiraklarının birbaşa hüquqi cəzası deyil, lakin ayrı-ayrı epizodlar bir gün onların da mühakiməsinə dair güclü təəssürat yaradır. Azərbaycan məhkəmələrində erməni separatçıların mühakimə olunma faktı ilə həmin məqam birləşdiriləndə həmin ehtimal güclənir.

Bundan əvvəl Prezident İlham Əliyev dəfələrlə Robert Köçəryan və Serj Sarkisyanı cinayətkar, xunta rejiminin təmsilçiləri, Azərbaycana qarşı cinayətlərin müəllif və iştirakçıları kimi xarakterizə edib.

Prezident İlham Əliyev hələ 44 günlük Vətən müharibəsinin gedişində, oktyabrın 17-də xalqa müraciətində demişdi: *"Əminəm ki, erməni xalqı da öz cinayətkar xunta rejimi başçılarını məsuliyyətə cəlb edəcək. Biz isə haqq yolundayıq, ədalət yolundayıq. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!"*

Dövlətimizin başçısı bir neçə gün sonra - oktyabrın 26-da xalqa müraciətində analoji fikri daha da qüvvətləndirirək Köçəryan-Sarkisyan cütlüyünün Qarabağda yaşayan insanların qanını içdiklərini bildirib.

Bu gün Köçəryanla Sarkisyanın müttəhim kürsüsünə çıxarılması erməni xalqının keçmiş xuntaçılara verdiyi cəza kimi qiymətləndirilə bilər. Bu, dövlətimizin başçısının regional, qlobal hadisələri güclü strateji zəkası hesabına əvvəlcədən necə dəqiqliklə qiymətləndirməsinin bariz nümunəsidir.

Köçəryan-Sarkisyan "birliyi"nin cinayətlərdən motivasiya alaraq hakimiyyətə gəlməsi və iqtidarlarını güc tətbiq etməklə qorumaqları barədə Prezident İlham Əliyevin digər çıxışları da olub. Bu, dövlətimizin başçısının Ermənistan xalqına verdiyi mesajın mahiyyətini anlamağa kömək edir. Prezident İlham Əliyevin həmin məzmundakı bəyanatları olduqca mühüm mesaj kimi Ermənistan xalqının, erməni cəmiyyətinin qarşısında çağırış kimi dayanırdı.

Dövlətimizin başçısı bununla aşağıdakı fikirləri kateqoriyalaşdıraraq diqqətə çatdırırdı:

**- Robert Köçəryan və Serj Sarkisyan Ermənistanda cinayətlərin yaratdığı eyforiya ilə hakimiyyətə gəliblər. Bu, Qarabağ münaqişəsi zamanından azərbaycanlılara qarşı törədilən cinayətlərdən tutmuş, Ermənistan daxilindəki repressiyalara qədər olan rakursu əhatə edir;**

**- Güc və korrupsiya üzərində qurulan Köçəryan-Sarkisyan cütlüyünün hakimiyyəti Ermənistan xalqının maraqlarını və iradəsini təmsil etməyib. Bu, Prezident İlham Əliyevin Köçəryan-Sarkisyan tandeminin erməni xalqını girovda saxlaması haqqında bəyanatları ilə tam uyğundur;**

**- Qarabağ klanı kimi tanınan siyasətçilərin Ermənistan xalqı üzərində legitimliyi olmayıb. Bu, onların keçmişdəki əməllərinə dair daha geniş materialların ictimailəşməsinə gətirib çıxara bilər.**

## Müdriklik və uzaqgörənliyin regional təsirləri

Prezident İlham Əliyevin strateji uzaqgörənliyinin regional təsirləri Azərbaycanın liderliyi ilə formalaşan sülh gündəliyinin məntiqi ilə tam səsləşir. Digər tərəfdən, Ermənistanın daxildə cilalanmaya məruz qalması hüquqi məsuliyyətin ölçü vahidlərini də böyüdə bilər.

Qarabağ klanının liderlərinin legitimliklərinə dair düşüncələrin iflası illərlə erməni cəmiyyətinə aşılanan ideologiyanın dağılmasını əsaslandıracaq gedişatdır. Prezident İlham Əliyevin illər öncə səsləndirdiyi fikirlər və apardığı qətiyyətli siyasətə maneə yaratmağa çalışan keçmiş xuntaçılar bu gün tarixi ədalətin zərbəsi altındadırlar.

Regionda inkişafın təmin olunması, kommunikasiyaların açılması və təhlükəsizlik mühitinin yaranması yeni yanaşmalar tələb edir. Gələcək qarşıdurma və işğal üzərində deyil, beynəlxalq hüququn normaları və qarşılıqlı hörmət üzərində qurulmalıdır. Köçəryan-Sarkisyan rejiminin siyasi səhnədən tədricən silinməsi isə regionun sağlam gələcəyə doğru irəliləməsinin mühüm mərhələsi kimi dəyərləndirilə bilər.

***AZƏRTAC***

# Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığında əsas hədəf birgə istehsal və üçüncü bazarlara çıxış olmalıdır

**"Tarixi və mədəni köklərə malik Azərbaycan-Özbəkistan əlaqələri son illərdə iqtisadi müstəvidə də sürətlə inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində iki ölkə arasında "Əbədi dostluq haqqında müqavilə"nin imzalanması ilə yanaşı, ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılmasını nəzərdə tutan ayrıca proqramın qəbul edilməsi iqtisadi əməkdaşlığın inkişafında mühüm mərhələdir. Bu, sadəcə, kəmiyyət göstəricisi deyil, Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığının yeni modelə keçidi baxımından strateji hədəfdir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **iqtisad elmləri doktoru, professor Rəsmiyyə ABDULLAYEVA** səsləndirib.

O bildirib ki, son illərdə iki ölkə arasında ticarət dövriyyəsində müşahidə olunan dinamika bu hədəfin real iqtisadi əsaslara söykəndiyini göstərir: "Statistik məlumatlara əsasən, Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 2026-cı ilin yanvar-may aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faiz artaraq 144 milyon dollara çatıb. Ümumilikdə son beş ildə iki ölkə arasında qarşılıqlı ticarətin həcmi üç dəfə artıb. Bu göstəricilər 1 milyard dollarlıq hədəfin real olduğunu göstərir. Lakin qarşıdakı mərhələdə əsas məsələ yalnız ticarət həcmini artırmaq deyil, onun strukturunu dəyişdirməkdir. Əgər əvvəllər əsas sual "nəyi bir-birimizə sata bilmək idisə", yeni mərhələdə isə sual "nəyi birlikdə istehsal edib üçüncü bazarlara sata bilmək olmalıdır".

R.Abdullayeva deyib ki, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında investisiyalar və ticarət sahələrində layihələrin həyata keçirilməsi üzrə Praktiki Fəaliyyət Planı (Yol Xəritəsi)" bu baxımdan mühüm institusional baza yaradır: "Sənəd çərçivəsində birgə investisiya layihələrinin həyata keçirilməsi, müəssisələrin yaradılması, sənaye kooperasiyasının genişləndirilməsi, logistika və tranzit imkanlarından daha səmərəli istifadə, regionlararası biznes əlaqələrinin inkişafı və Azərbaycan, eləcə də Özbəkistan şirkətlərinin üçüncü bazarlara birgə çıxışı üçün yeni imkanların formalaşması gözlənilir".

Ekspertin fikrincə, xüsusilə sənaye kooperasiyasının inkişafına diqqət artırılmalıdır: "Özbəkistanda istehsal olunan xammal və aralıq məhsulların Azərbaycanda emal edilməsi və ya Azərbaycanın texnologiya, kapital və logistika imkanları əsasında Özbəkistanda istehsal müəssisələrinin yaradılması hər iki ölkənin istehsal və ixrac potensialını gücləndirə bilər. Belə əməkdaşlıq yalnız ikitərəfli ticarəti artırmır, eyni zamanda əlavə dəyərin iki



ölkə arasında formalaşmasına imkan verir. Birgə müəssisələrin yaradılması, texnologiya və təcrübə mübadiləsi, istehsal zəncirlərinin inteqrasiyası və məhsulların üçüncü bazarlara çıxarılması iqtisadi əməkdaşlığın daha dayanıqlı modelini formalaşdıra bilər. Azərbaycan və Özbəkistan arasında kənd təsərrüfatı, tekstil, qida sənayesi, turizm, xidmət, tikinti materialları, kimya, energetika və s. sahələrdə geniş əməkdaşlıq potensialı mövcuddur. Xüsusilə Özbəkistanın böyük kənd təsərrüfatı potensialı ilə Azərbaycanın emal və logistika imkanlarının birləşdirilməsi yüksək əlavə dəyər yaradan yeni layihələrin reallaşdırılmasına şərait yarada bilər. Burada söhbət yalnız meyvə-tərəvəz və digər aqrar məhsulların ticarətindən getmir. Əsas perspektiv həmin məhsulların emal edilərək konserv, şirə, qurudulmuş məhsul, qablaşdırılmış ərzaq və digər yüksək əlavə dəyərli məhsullara çevrilməsidir. Bu yanaşma həm ticarətin həcmini, həm də onun keyfiyyətini yüksəldə bilər".

Onun sözlərinə görə, logistika və nəqliyyat əməkdaşlığı da 1 milyard dollarlıq hədəfin reallaşmasında mühüm rol oynaya bilər.

"Azərbaycan-Özbəkistan ticarətinin genişlənməsi yalnız iki ölkənin bazarları ilə məhdudlaşmamalıdır. Məhsulların Avropa, Qafqaz, Mərkəzi Asiya və digər bazarlara çıxarılması üçün hər iki ölkənin logistika və tranzit imkanlarından birgə istifadə olunması yeni ixrac imkanları yarada bilər", - ekspert bildirib.

O, energetika, geologiya və mədən sənayesini də perspektivli əməkdaşlıq istiqamətləri sırasında qeyd edib: "Enerji, geoloji kəşfiyyat, qiymətli metallar və mineral resursların işlənməsi üzrə birgə layihələr qarşılıqlı investisiyaların genişlənməsinə və yeni istehsal zəncirlərinin yaranmasına imkan verə bilər. Əslində, məqsəd yalnız 2030-cu ilədək 1 milyard ABŞ dolları həcmində ticarət dövriyyəsinə nail olmaqla məhdudlaşmamalıdır. Daha böyük məqsəd birgə investisiya qoyan, birlikdə istehsal edən, texnologiya və təcrübə mübadiləsi aparan və məhsullarını üçüncü bazarlara birgə çıxaran Azərbaycan-Özbəkistan biznes ekosisteminin formalaşdırılması olmalıdır. Bu halda 1 milyard dollarlıq göstərici son məqsəd deyil, daha geniş iqtisadi inteqrasiyanın nəticəsi olacaq".

# Azərbaycan-Rusiya münasibətləri süni şəkildə gərginləşdirilir

## Qonşu ölkədə bəzi dairələrin dövlətimizi hədəf alan təxribatları və informasiya hücumları bunun göstəricisidir



**Azərbaycan özünün müstəqil, çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu ilə dünyada seçilir. Dövlətimiz həm regional, həm də qlobal miqyasda mehriban qonşuluq, qarşılıqlı hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanan etibarlı tərəfdaşlıq modeli formalaşdırıb. Şərq və Qərb, Şimal və Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz suverenliyinə və milli maraqlarına söykənərək istər ikitərəfli, istərsə də çoxtərəfli platformalarda sülhün və sabitliyin tərəfdarı kimi çıxış edir.**

### Bəyan edilən prinsiplərə zidd əməllər

Ölkəmizin bu xarici siyasət kursunun tərkib hissəsi olaraq, Rusiya Federasiyası ilə münasibətlər də uzun illər boyunca mehriban qonşuluq və strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilib. 22 fevral 2022-ci il tarixində iki ölkə arasında imzalanmış "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Bəyannamədə göstərilir ki, Rusiya və Azərbaycan öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar.

Lakin son dövrlərdə baş verən proseslər Rusiyada bəzi dairələrin bu strateji tərəfdaşlıq ruhuna və bəyan edilən prinsiplərə kökündən zidd hərəkət etdiyini göstərir. Bunun əyani göstəricilərindən biri 27 avqust tarixində günorta radələrində baş verib. Azərbaycanın Rusiyadakı səfirliyinin qonaq evi qarşısında naməlum şəxslər tərəfindən ölkəmiz əleyhinə təxribat xarakterli şəkillər yerləşdirilib.

Rəsmi Bakı bu addımı qətiyyətlə pisləyərək, bunu iki ölkə arasında etimad mühitini sarsıtmağa hesablanmış qəbuledilməz əməl kimi qiymətləndirib.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) yaydığı açıqlamada deyilir ki, bu qəbuledilməz təxribatın Azərbaycan-Rusiya münasibətlərinin süni şəkildə gərginləşdirilməsinə xidmət etməklə yanaşı, son dövrlərdə Rusiyanın bir sıra media resurslarında Azərbaycana qarşı aparılan çirkin və qərəzli kampaniyanın tərkib hissəsi olduğu istisna edilmir.

Azərbaycan tərəfi Rusiya Federasiyasının aidiyyəti qurumlarını bu kimi təxribatçı əməllərə lazımi hüquqi qiymət verməyə, insidentin hərtərəfli araşdırılmasını təmin etməyə və bu cür halların təkrarlanmasının qarşısını almaq üçün zəruri tədbirlər görməyə çağırır: "Rusiya tərəfinin 1961-ci il Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının Səfirliyinin və onun əməkdaşlarının təhlükəsizliyinin təmin edilməsinə, habelə diplomatik nümayəndəliyin normal fəaliyyətinə mane ola biləcək hər hansı təxribatçı hərəkətlərin qarşısının alınmasına dair öhdəliklərini tam şəkildə yerinə yetirməsini gözləyirik".

### Ardıcıl aparılan çirkin kampaniya

Vurğulandığı kimi, səfirliyimizin qonaq evinin qarşısında baş verən bu fiziki təxribatı təsadüf hesab etmək olmaz. O, Rusiyanın bir sıra media resurslarında, televiziya kanallarında və sosial şəbəkələrində Azərbaycana qarşı son dövrlər ardıcıl aparılan çirkin qarayaxma kampaniyasının tərkib hissəsidir.

Avqust ayı ərzində müşahidə edilən sistemli təhrikçilik faktları məsələnin təsadüfi ekspert mülahizəsi olmadığını sübut edir. Bu, məqsədyönlü şəkildə idarə olunur.

7 avqustda "Sputnik" radiosunda Azərbaycan rəhbərliyinin əsassız şəkildə "terrorçu və ekstremistlər" siyahısına salınması kimi cəfəng təkliflərin tirajlanması, 9 və 16 avqust tarixlərində isə "YouTube" və "Spas" telekanalında Azərbaycanın rəhbərliyinə qarşı yenidən təhqiramiz məzmunların təqdim olunması informasiya terrorunun miqyasını göstərir.

13 avqust tarixində yayımlanan və "Çistota ponimaniya" verilişində ölkəmizə, xalqımıza və Azərbaycan Respublikasının rəhbərliyinə qarşı səsləndirilən ifadələr diplomatik etikaya və hüquq normalarına tamamilə ziddir.

Bu media platformalarında yalnız təhqir və böhtan səslənilməyib, həm də Azərbaycanın daxili siyasi proseslərinə müdaxilə mexanizmləri, hətta Azərbaycan xalqına və rəhbərliyinə qarşı fiziki zorakılıq çağırışları müzakirəyə çıxarılıb. Bütün bu təxribatlar, iki ölkə arasında razılaşdırılmış strateji tərəfdaşlıq və mehriban qonşuluq prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Sistemli xarakter alan bu təhdidlərin fonunda avqustun 18-də Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Rəsmi Bakının bu diplomatik addımı daxili işlərə müdaxilə cəhdlərinə və suverenliyə qarşı yönəlmiş hibrid təhdidlərə verilən kəskin və prinsipial reaksiyadır.

Görüşdə qarşı tərəfin diqqətinə çatdırılıb ki, media məkanında Azərbaycan əleyhinə zorakılıq və təhdid ritorikasına son qoyulması üçün təxirəsalınmaz tədbirlər görülməlidir.

Paralel olaraq, Azərbaycan Mətbuat Şurası da kəskin bəyanat yayaraq bildirib ki, Azərbaycan mediası hər zaman qonşu ölkələr, o cümlədən Rusiya ilə bağlı məsələlərdə peşəkar və həssas mövqe nümayiş etdirib. Lakin Rusiyanın informasiya məkanında baş verən bu hallar sivil jurnalistika etikasına sığmır və Azərbaycan ictimaiyyətində dərin narazılıq doğurur.

Azərbaycan hər zaman verdiyi sözə, imzaladığı beynəlxalq sənədlərə və mehriban qonşuluq öhdəliklərinə sadiqdir. Lakin çoxşaxəli və müstəqil xarici siyasət yürüdən Bakı heç bir ölkənin onun milli ləyaqətinə, suverenliyinə və daxili işlərinə müdaxilə etməsinə göz yummaq niyyətində deyil. Rəsmi Bakının nümayiş etdirdiyi prinsipial mövqe bir daha təsdiqləyir ki, ölkəmizin maraqlarına qarşı yönələn hər bir təxribat layiqli cavabını alacaq.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# ŞƏT-in növbəti sammitində hansı məsələlər müzakirə olunacaq

**Dünyada yaşanan mürəkkəb geosiyasi vəziyyət, iqtisadi problemlər, sülh və sabitliyin təminatı kimi qlobal çağırışlar beynəlxalq təşkilatları daha sıx dialoq qurmağa vadar edir. Bu kontekstdə ərazi və əhali sayına görə dünyanın ən böyük regional təsisatı olan Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) mühüm rol oynayır.**



Başlıca məqsədləri üzv dövlətlər arasında etimadın möhkəmləndirilməsi, çoxşaxəli əməkdaşlığın gücləndirilməsi, regionda sabitliyin qorunması olan qurum 2001-ci ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan tərəfindən təsis edilib. Zamanla əhatə dairəsini genişləndirən təşkilata 2017-ci ildə Hindistan və Pakistan, 2023-cü ildə İran, 2024-cü ildə isə Belarus üzv qəbul olunub. Avrasiya ərazisinin 60 faizini, dünya əhalisinin 40 faizini, qlobal ümumi daxili məhsulun isə 25 faizini özündə birləşdirən ŞƏT regionda siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əsas platformalardan birinə çevrilib. ŞƏT ölkələri - 3,5 milyard insan, 36 milyon kvadratmetr ərazi, Avrasiyanın 65 faizi deməkdir və onların ümumi iqtisadi potensialı təqribən 30 trilyon avro təşkil edir.

Təşkilatda əhali sayına görə dünyada birinci, iqtisadiyyatın həcminə görə ikinci olan Çin Xalq Respublikası aparıcı rola malikdir. Çin özünün böyük iqtisadi potensialı ilə ŞƏT çərçivəsində ticarət, iqtisadi və humanitar əməkdaşlığın genişlənməsində əsas lokomotiv rolunu oynayır. Çinin 2024-cü ildə ŞƏT-ə üzv ölkələrlə ticarət dövriyyəsi 2,7 faiz artaraq 512,4 milyard ABŞ dollarına çatıb. Eyni zamanda Pekinin müəllifi olduğu "Bir kəmər, bir yol" strategiyasının ŞƏT ailəsindəki ölkələri əhatə etməsi Çinin bu dövlətlərlə tərəfdaşlığa marağını daha da artırıb.

Şanxay Əməkdaşlıq Təşkilatı da digər strukturlar kimi inkişafının yeni mərhələsinə qədəm qoyur. Təşkilatın Dövlət Başçıları Şurasının növbəti sammiti 31 avqust - 1 sentyabr 2026-cı il tarixlərində Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçiriləcək. Qurumun 25 illiyinə təsadüf edən və dördüncü dəfə Qırğızıstanın sədrliyi ilə baş tutacaq Zirvə görüşü "ŞƏT-in 25 ili: davamlı sülh, inkişaf və rifah naminə birlikdə" şüarı altında təşkil olunacaq. Qırğızıstanın sədrliyi dövründə regional təhlükəsizlik, rəqəmsal transformasiya, nəqliyyat-logistika infrastrukturu ilə yanaşı, maliyyə mexanizmlərinin inkişaf etdirilməsi, o cümlədən ŞƏT-in İnkişaf Bankı, İnkişaf Fondu və İnvestisiya Fondunun yaradılması prioritet məsələlər kimi nəzərdə tutulur. Çin Xalq Respublikasının Sədri Si Cinpin və üzv ölkələrin liderlərinin iştirak edəcəyi Bişkek sammitində yeni şəraitdə ŞƏT çərçivəsində bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi, eləcə də aktual, mühüm beynəlxalq və regional problemlər üzrə ətraflı fikir mübadiləsi aparılacaq.

Beynəlxalq və regional təşkilatlarda fəal iştirak edən Azərbaycan ŞƏT ilə münasibətlərin inkişafına böyük önəm verir. Azərbaycan və Türkiyə daxil olmaqla qurumun 14 dialoq tərəfdaşı var və daha bir neçə ölkə bu statusu almaq üçün müraciət edib. Ölkəmizə dialoq tərəfdaşı statusunun verilməsinə dair qərar təşkilatın 2015-ci il iyulunda Ufada keçirilən Zirvə görüşündə qəbul edilib, müvafiq əməkdaşlıq memorandumu isə 2016-cı ildə Pekində imzalanıb. Ötən dövr ərzində Azərbaycan təşkilatın Düşənbə və Daşkənd İqtisadi forumlarında fəal təmsil olunub. 2024-cü ildə isə Azərbaycan bu statusun müşahidəçi ölkəyə çevrilməsi üçün ŞƏT-ə rəsmi müraciət edib. Ölkəmizin davamlı inkişafı, regional gücə çevrilməsi, əlverişli coğrafi mövqeyi və gerçəkləşdirdiyi nəhəng infrastruktur layihələri onun təşkilat üçün əhəmiyyətini artırır. Azərbaycan gənc müstəqil dövlət olmasına baxmayaraq, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyü, Qoşulmama Hərəkatına uğurlu sədrliyi və COP29 kimi mötəbər qlobal tədbirə evsahibliyi etməsilə etibarlı beynəlxalq tərəfdaş imicini möhkəmləndirib.

Azərbaycan Prezidenti İlham Əliyevin ŞƏT-in Zirvə görüşlərində fəxri qonaq qismində iştirakı artıq ənənə halını alıb. Dövlətimizin başçısı 2022-ci ilin sentyabrında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Səmərqənd Sammitində, 2024-cü ilin iyulunda isə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Astanada keçirilən "ŞƏT plyus" Zirvə görüşündə iştirak edib. Səmərqənd sammitində çıxış edən dövlətimizin başçısı 44 günlük Vətən müharibəsində əldə olunan Qələbədən sonra regionda nəqliyyat və kommunikasiya infrastrukturunun inkişafı üçün yeni imkanların yarandığını, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona qədər artırılacağını diqqətə çatdırıb.

Ölkəmizlə Çin Xalq Respublikası arasında sürətlə inkişaf edən strateji münasibətlər Azərbaycanın ŞƏT ilə əlaqələrinə də birbaşa müsbət təsir göstərir. 2025-ci ilin aprelində Prezident İlham Əliyevin Çinə növbəti dövlət səfəri və ÇXR Sədri Si Cinpin ilə görüşü zamanı imzalanmış "Hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" ikitərəfli əlaqələrə yeni tarixi səhifə açıb. Dövlətimizin başçısı 2025-ci ildə Çində keçirilən ŞƏT Sammitində iştirak edib.

ŞƏT ilə əlaqələrin dərinləşməsi əməkdaşlığa, Orta dəhliz kimi qlobal layihələrə dəstəyin artmasına xidmət edir. Xüsusilə Orta dəhlizin üstünlükləri, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinə verilən dəstək ölkəmizi Avrasiyanın mühüm nəqliyyat-logistika mərkəzinə çevirir. Bu infrastruktur ŞƏT ölkələri üçün nəqliyyat-tranzit imkanlarının və enerji resurslarının birgə istifadəsini genişləndirir, həmçinin Azərbaycandakı əlverişli investisiya mühitindən faydalanmağa zəmin yaradır.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Kayrat OSMONALİYEV: "Azərbaycan-Qırğızıstan əməkdaşlığı tranzit və investisiya imkanlarını genişləndirir"

## Qırğızıstan Azərbaycan üçün "şərq qapısı"na çevrilir

**"Azərbaycan-Qırğızıstan münasibətləri 2026-cı ildə strateji tərəfdaşlıq mərhələsindən müttəfiqlik və geoiqtisadi qarşılıqlı fəaliyyətin keyfiyyətcə yeni mərhələsinə keçib. Xüsusilə vacib məqam ondan ibarətdir ki, nəqliyyat və investisiyalar vahid strategiyada birləşdirilməyə başlayır. Cari il iyulun 31-də Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri çərçivəsində tərəflər müttəfiqlik münasibətləri haqqında Müqavilə imzalayıb, Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun kapitalı isə 200 milyon dollaradək artırılıb. Prezident İlham Əliyev bununla yanaşı, bu məbləğin də son hədd olmadığını açıq şəkildə qeyd edib. Qırğızıstan-Azərbaycan münasibətləri tədricən qardaşlıq diplomatiyasından qarşılıqlı bağlılığın geoiqtisadiyyatına keçir. Qırğızıstan şərq tranzit potensialını, hidroenergetikanı, aqrar resursları, turizm imkanlarını və Mərkəzi Asiya bazarlarına çıxışı təmin edir. Azərbaycan isə Xəzərə çıxışı, nəqliyyat infrastrukturunu, logistika sahəsində təcrübəsini, energetika üzrə imkanlarını, həmçinin Cənubi Qafqaz, Türkiyə və Avropa bazarlarına çıxışı təmin edir".**

Bunu AZƏRTAC-a müsahibəsində Qırğızıstanın Azərbaycandakı sabiq səfiri Kayrat Osmonaliyev deyib.

*- Bişkekdə Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun Türkmənistan və Xəzər dənizi üzərindən Azərbaycana uzanan Orta dəhlizə inteqrasiyasının strateji əhəmiyyəti necə qiymətləndirilir?*

- Mən Çin-Qırğızıstan-Özbəkistan (ÇQÖ) dəmir yoluna yalnız Qırğızıstanın milli infrastruktur layihəsi kimi deyil, Orta dəhlizin şərq istiqamətində mühüm davamı kimi yanaşardım. Burada nəzərə alınmalı məqam ondan ibarətdir ki, söhbət vahid və dəyişməz marşrutdan getmir. Orta dəhlizin Qazaxıstan üzərindən keçən şimal Xəzər qolu ilə yanaşı, Özbəkistan-Türkmənistan-Xəzər-Azərbaycan marşrutunu əhatə edən və getdikcə daha çox əhəmiyyət qazanan cənub qolu da mövcuddur. Azərbaycan tərəfi Xəzər istiqamətini Türkmənbaşı, Aktau, Kurık və Bakı limanlarını əhatə edən geniş nəqliyyat şəbəkəsi kimi nəzərdən keçirir. ÇQÖ dəmir yolunun tikintisi isə bu şəbəkənin yük bazasının genişlənməsinə imkan yaradı bilər.

Xüsusilə cənub marşrutunun perspektivləri diqqət çəkir. ÇQÖ dəmir yolunun istifadəyə verilməsi Qırğızıstan-Özbəkistan-Türkmənistan-Türkmənbaşı limanı istiqamətində yeni nəqliyyat bağlantısının formalaşmasına şərait yarada bilər. Regionun biznes dairələri də bu marşrutun Qazaxıstan üzərindən keçən alternativ istiqamətlərlə müqayisədə daha əlverişli tariflər və daha az yüklənmə baxımından üstünlükləri yarada biləcəyini gözləyirlər.

Qırğızıstan baxımından layihənin strateji əhəmiyyəti daha genişdir. ÇQÖ dəmir yolu ölkəni Çin-Mərkəzi Asiya yük axınlarının son nöqtəsindən Xəzər üzərindən Azərbaycana, oradan isə Türkiyə və Avropa bazarlarına çıxan Trans-Avrasiya nəqliyyat zəncirinin mühüm həlqəsinə çevirə bilər. Dəmir yolu əlaqələri baxımından məhdud imkanlara malik Qırğızıstan üçün bu, həm beynəlxalq tranzit, həm də daxili nəqliyyat inteqrasiyası baxımından mühüm addımdır. Ölkənin mövcud dəmir yolu şəbəkəsinin parçalanmış olması və şimal ilə cənub arasında birbaşa bağlantının olmaması yeni layihənin əhəmiyyətini daha da artırır.



Azərbaycan üçün isə Qırğızıstan Orta dəhlizin şərq istiqamətində mühüm tərəfdaşa çevrilə bilər. Burada tərəflərin maraqları bir-birini tamamlayır: Qırğızıstanın dünya bazarlarına daha səmərəli çıxışa, Azərbaycanın isə sabit və artan şərq yük axınına ehtiyacı var. Azərbaycan artıq dəhlizin qərb hissəsində mühüm infrastruktura - Ələt limanına, Bakı-Tbilisi-Qars dəmir yoluna və Xəzər üzrə nəqliyyat imkanlarına malikdir. Buna görə Azərbaycan-Qırğızıstan əməkdaşlığının perspektivləri yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmır, daha geniş tranzit və regional əməkdaşlıq müstəvisinə keçir.

Bu baxımdan perspektivli nəqliyyat zəncirini Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Xəzər-Azərbaycan-Gürcüstan/Türkiyə-Avropa istiqamətində təsəvvür etmək mümkündür.

Beləliklə, ÇQÖ dəmir yolunun Orta dəhlizə inteqrasiyası Qırğızıstanın bu nəqliyyat sistemində kənarda qalan ölkə deyil, onun şərq istiqamətində əsas quru nəqliyyat qovşaqlarından biri kimi çıxış etməsinə imkan yarada bilər. Eyni zamanda layihə Mərkəzi Asiya ilə Azərbaycan arasında iqtisadi və logistika əlaqələrinin dərinləşməsinə, Orta dəhlizin yük bazasının genişlənməsinə və Çin-Avropa arasında alternativ nəqliyyat bağlantılarının gücləndirilməsinə xidmət edə bilər.

*- Qırğızıstan iqtisadiyyatının hansı sektorları, - energetika, logistika, turizm, kənd təsərrüfatı, - Azərbaycan biznesində daha böyük real maraq doğurur?*

- Mən burada hər dörd sektoru eyni səviyyədə qiymətləndirməzdim. Energetika ən aktual istiqamətdir. Bu, artıq sadəcə potensial maraq deyil. 2025-ci ildə fond, digər layihələrlə yanaşı, İssık-Kul və Oş vilayətlərində iki kiçik SES layihəsini maliyyələşdirib. Buna görə də mən üç istiqamətdə inkişaf gözləyərdim: kiçik və orta hidroenergetika, enerji infrastrukturu, neft məhsullarının tədarükü və energetika sahəsində əməkdaşlıq. Sonuncu istiqamət xüsusilə maraqlıdır, çünki cari ilin iyulunda energetika sahəsində əməkdaşlığa dair sənədlər və 2026-2028-ci illər üçün yol xəritəsi imzalanıb.

Logistika potensial baxımdan ən strateji sektordur. Energetika ən aktual sahədirsə, logistika strateji baxımdan ən əhəmiyyətli sahəyə çevrilə bilər. Üstəlik, söhbət yalnız dəmir yolundan getmir. Quru limanlara, multimodal terminallara, anbarlara, soyuducu komplekslərə, nəqliyyat-ekspedisiya şirkətlərinə, yüklərin izlənməsi üzrə rəqəmsal sistemlərə, sığorta və ticarətin maliyyələşdirilməsi xidmətlərinə ehtiyac yaranacaq.

Özbəkistan tərəfi açıq şəkildə bildirir ki, Orta dəhlizin inkişafı quru limanlara, terminallara, anbarlara, soyuducu anbarlara, təmir müəssisələrinə, sığorta, maliyyə və rəqəmsal xidmətlərə tələbat yaradır. Burada Azərbaycan biznesinin Xəzər nəqliyyat qovşağı ilə işləmək təcrübəsi sayəsində təbii rəqabət üstünlüyü var.

Aqrar-sənaye kompleksi ən praktik istiqamətdir. Azərbaycan-Qırğızıstan İnkişaf Fondu ilk vaxtlardan aqrar-sənaye kompleksini, bağçılığı, emalı və tekstil sənayesini prioritet istiqamətlər sırasına daxil edib. Lakin mən sadəcə kənd təsərrüfatı xammalının ixracına deyil, birgə istehsal zəncirlərinin yaradılmasına diqqət yetirərdim: qırğız xammalı - Azərbaycan texnologiyaları və kapitalı - Qırğızıstanda emal - Xəzər üzərindən ixrac. Məhz belə bir model hər iki tərəf üçün daha maraqlıdır.

Turizm sahəsində də əməkdaşlıq üçün böyük imkanlar mövcuddur. Bu istiqamət daha uzunmüddətli perspektiv daşısa da, xüsusilə İssık-Kul gölü Qırğızıstanın əsas turizm üstünlüklərindən biridir. Azərbaycanın hotelçilik və turizm infrastrukturu sahəsində təcrübəsinin Qırğızıstanın dağ, sağlamlıq və ekoturizm potensialı ilə birləşdirilməsi yeni imkanlar yarada bilər. 2026-cı ildə Şuşa ilə Çolpon-Ata, Qəbələ ilə Karakol, Gəncə ilə Oş şəhərləri arasında qardaşlaşma haqqında sazişlərin imzalanması da bu baxımdan əhəmiyyətlidir. Bu təşəbbüslər gələcəkdə iki ölkə arasında yalnız mədəni əlaqələrin deyil, həm də qarşılıqlı turizm marşrutlarının inkişafına zəmin yarada bilər.

*- Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun kapitalının 200 milyon dollara çatdırılmasını və bunun ÇQÖ-Türkmənbaşı-Xəzər-Bakı-BTQ marşrutu ilə əlaqəsini necə qiymətləndirirsiniz?*

- Məncə, bu, sadəcə kəmiyyət deyil, keyfiyyət baxımından da bir addımdır. İlkin olaraq fondun kapitalı 25 milyon dollar təşkil edirdi. Daha sonra bu məbləğ 100 milyon dollaradək artırıldı, indi isə 200 milyon dollara çatdırılıb. Bununla yanaşı, 2026-cı ilin ortalarına doğru fond artıq fəaliyyətinin səviyyəsini nümayiş etdirərək 11 təşəbbüs təsdiqlənmiş, təxminən min iş yeri yaradılmış, daha 30-a yaxın layihə isə nəzərdən keçirilməkdə idi. Prioritetlər sırasında energetika, logistika, sənaye və kənd təsərrüfatı məhsullarının emalı, o cümlədən Qırğızıstan regionlarında həyata keçiriləcək layihələr göstərilirdi. Buna görə də mən 200 milyon dolları son investisiya həcmi kimi deyil, maliyyə rıçağı kimi qiymətləndirərdim. Əgər fond birgə maliyyələşdirmə, bank kreditləşməsi və özəl kapitalın cəlb edilməsi mexanizmlərindən istifadə edərsə, layihələrin real həcmi fondun nominal kapitalından əhəmiyyətli dərəcədə yüksək ola bilər.

İstərdim ki, ÇQÖ-Türkmənbaşı-Xəzər-Bakı-BTK marşrutunun potensial olaraq Çin təşəbbüsünü Orta dəhlizin şərq hissəsi ilə birləşdirə biləcək infrastruktur oxu formalaşdırmasına xüsusi diqqət yetirim. Buna görə də Bişkek üçün burada söhbət yalnız Qırğızıstandan nə qədər yük keçəcəyindən getmir. Daha vacib məsələ ölkənin bu tranzit ətrafında öz sənaye, logistika, enerji və ixrac ekosistemini yarada bilib-bilməyəcəyidir. Məhz bu kontekstdə Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun 200 milyon dollaradək artırılması xüsusi strateji əhəmiyyət kəsb edir.



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



## *Dezinformasiya və süni intellekt:* həqiqətin müdafiəsi uğrunda yeni mübarizə

**Süni intellektin sürətli inkişafı həyatımızın bir çox sahəsində yeni imkanlar açdığı kimi, informasiya məkanında da böyük dəyişikliklər yaradıb. Hər bir güclü texnologiya kimi, süni intellektdən də həm faydalı, həm də təhlükəli məqsədlərlə istifadə etmək mümkündür. Bu baxımdan, dezinformasiyanın hazırlanması, dəyişdirilməsi və yayılmasında süni intellekt texnologiyalarının yaratdığı imkanlar xüsusi narahatlıq doğurur.**



Belə bir şəraitdə Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, Azərbaycan Texniki Universitetinin Data Elmi və Süni İntellekt İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ramiz Alıquliyev və universitetin doktorantı Cəlal Mehdiyevin apardıqları tədqiqat xüsusi əhəmiyyət kəsb edir.

Araşdırma göstərib ki, saxta xəbərləri avtomatik aşkarlamaq üçün yaradılmış süni intellekt sistemlərinin yüksək dəqiqlik göstəriciləri onların real informasiya mühitində də eyni dərəcədə etibarlı işlədiyi anlamına gəlmir. Etalon mətnlər üzərində 98-99 faizə çatan nəticə real şəraitdə tamamilə başqa mənzərə yarada bilər. Burada diqqətçəkən əsas məqam ondan ibarətdir ki, bəzi sistemlər xəbərin məzmununun həqiqətə uyğun olub-olmamasından daha çox onun hansı üslubda yazıldığına diqqət yetirirlər. Başqa sözlə, sistem müəyyən hallarda informasiyanın özünü yox, onun təqdimetmə formasını "tanıyır". Bu isə dezinformasiyaya qarşı mübarizədə ciddi boşluq yaradır. Təsəvvür edək ki, saxta xəbər süni intellekt vasitəsilə hazırlanıb, sonra isə həmin mətnin məzmununa toxunulmadan yalnız ifadə tərzi dəyişdirilib. Araşdırmanın nəticələri göstərir ki, belə halda mövcud saxta xəbər aşkarlama sistemlərinin səmərəliliyi əhəmiyyətli dərəcədə aşağı düşə bilər. Deməli, yalan məlumat öz mahiyyətini qoruduğu halda onun "qablaşdırması"nın dəyişdirilməsi aşkarlama mexanizmini çaşdırırır. Bu fakt bizə mühüm bir həqiqəti xatırladır: texnologiyanın imkanları artdıqca, onun yaratdığı problemlərin həlli üçün daha mükəmməl texnologiyalara ehtiyac yaranır.

Azərbaycan alimlərinin tədqiqatının mühüm tərəfi də məhz bundan ibarətdir. Ramiz Alıquliyev və Cəlal Mehdiyevin apardıqları araşdırma çərçivəsində problemin aradan qaldırılması üçün üsluba nəzarət edən ikimərhələli yanaşma təklif olunub. Müxtəlif böyük dil modellərindən istifadə etməklə həqiqi və saxta mətnlərin vahid yazı üslubuna uyğunlaşdırılması onların üslub fərqlərinin nəticələrə təsirini azaltmağa imkan verib. Əslində, bu yanaşma yalnız konkret elmi problemin həllinə yönəlmiş üsul deyil. Burada daha geniş bir məsələ - süni intellekt dövründə həqiqətin necə qorunacağı məsələsi ortaya çıxır. Çünki dezinformasiya sadəcə yanlış məlumat demək deyil. Onun arxasında cəmiyyətin düşüncəsinə, insanların qərarlarına və ictimai münasibətlərə təsir göstərmək imkanları dayanır. Yalan informasiya insanların yanlış qərarlar qəbul etməsinə, cəmiyyətdə inamsızlığın yaranmasına, qarşıdurmaların dərinləşməsinə və ictimai sabitliyin pozulmasına səbəb ola bilər. Xüsusilə böhran və həssas dövrlərdə dezinformasiyanın təhlükəsi daha da artır. Müharibə, fövqəladə hadisə, iqtisadi böhran, seçkilər, ictimai-siyasi proseslər və digər mühüm hadisələr zamanı yayılan saxta məlumatlar insanların emosiyalarına təsir etməklə real hadisələrin gedişinə belə mənfi təsir göstərir. Bu baxımdan, toxunduğumuz məsələ artıq informasiya texnologiyaları mütəxəssislərinin problemi deyil. Dezinformasiyaya qarşı mübarizə dövlət qurumlarından media strukturlarına, alimlərdən jurnalistlərə, təhsil müəssisələrindən tutmuş sıravi informasiya istifadəçilərinə qədər hər kəsin məsuliyyətini tələb edir.

Dövlət üçün isə bu təhlükənin miqyası daha böyükdür. Çünki geniş yayılan saxta məlumat ictimai etimadı sarsıda, dövlət institutları haqqında yanlış təsəvvür yarada və milli təhlükəsizliyə qarşı informasiya təhdidinə çevrilə bilər. Müasir dövrdə informasiya məkanının təhlükəsizliyi artıq dövlət təhlükəsizliyinin mühüm istiqamətlərindəndir. Ona görə də dezinformasiyanın aşkarlanması üçün istifadə olunan süni intellekt sistemlərinin özünün nə dərəcədə etibarlı olması prinsipial əhəmiyyət daşıyır. Əgər saxta xəbəri aşkar etməli olan sistem mətnin məzmunundan çox onun üslubuna aldanırsa, deməli, qarşıda daha mürəkkəb və fundamental elmi və texnoloji vəzifələr dayanır. Azərbaycan alimlərinin tədqiqatı mühüm mesaj verir: süni intellektin yaratdığı problemi yenə də süni intellekt və elmi araşdırmaların imkanları hesabına daha səmərəli həll etmək mümkündür. Bunun üçün yalnız yüksək faizlərlə ifadə olunan laboratoriya nəticələri kifayət etmir. Sistemlər real informasiya mühitində, müxtəlif yazı üslublarında, ayrı-ayrı mənbələrdən gələn və süni intellekt tərəfindən dəyişdirilmiş mətnlər üzərində ciddi sınaqlardan keçirilməlidir.

İnformasiya Texnologiyaları İnstitutu və Azərbaycan Texniki Universitetinin birgə qrant layihəsi çərçivəsində alimlərin apardıqları araşdırma göstərir ki, ölkəmizdə süni intellekt və informasiya təhlükəsizliyi istiqamətində aparılan elmi işlər beynəlxalq elmi müzakirələrin də tərkib hissəsinə çevrilir.

Elmi araşdırmalarla yanaşı, cəmiyyətin informasiya savadlılığının artırılması da vacibdir. Çünki ən mükəmməl texnologiya belə insanın məsuliyyətli informasiya davranışını tam əvəz edə bilməz. Oxucu xəbəri paylaşmazdan əvvəl mənbəni yoxlamalı, şübhəli və sensasion məlumatlara ehtiyatla yanaşmalı, informasiyanın müxtəlif etibarlı mənbələrdə təsdiqini axtarmalıdır. Bu gün informasiya məkanında ən böyük mübahisələrdən biri "məlumatı kim daha tez yayacaq?" sualı ətrafında deyil, "hansı məlumat doğrudur?" sualı ətrafında gedir. Süni intellekt bu mübarizədə həm mühüm silah, həm də potensial təhlükədir. Onun hansı istiqamətdə istifadəsi isə insanın elmi, hüquqi və mənəvi məsuliyyətindən asılıdır. Dezinformasiyaya qarşı mübarizə təkcə saxta xəbəri tutmaqdan ibarət deyil, əsas məqsəd cəmiyyətdə həqiqətə etimadı qorumaqdır. Bunun üçün elm, texnologiya, media və cəmiyyət birgə fəaliyyət göstərməlidir. Alimlərimizin apardığı araşdırma da bu istiqamətdə mühüm elmi töhfələrdən biri kimi qiymətləndirilə bilər.

Həqiqətin dəyəri isə onun nə qədər sürətlə yayıldığı ilə deyil, nə qədər etibarlı olduğu ilə ölçülür. Süni intellektin sürətlə dəyişdirdiyi informasiya dünyasında əsas vəzifə məhz budur - texnologiyanın inkişafını insanı həqiqətdən uzaqlaşdıran deyil, həqiqətə aparan gücə çevirməkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## ABŞ-də sosial şəbəkələrin uşaqlara təsiri ilə bağlı mübarizə sərtləşir

**Bəşəriyyət texnoloji tərəqqinin hələ heç vaxt şahidi olmadığı bir sürət dövrünü yaşayır. Smartfonlar, sosial şəbəkələr və süni intellekt alqoritmləri gündəlik həyatımızın ayrılmaz hissəsidir. Lakin bu rəqəmsal inqilabın görünməyən, qaranlıq və təhlükəli bir tərəfi də var - xüsusilə də uşaqlar və gənclər üçün yaratdığı psixoloji asılılıq.**



Son dövrlərdə qlobal miqyasda baş verən hadisələr rəqəmsal şirkətlər ilə cəmiyyət arasındakı mübarizənin yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Bu tendensiya dünya ölkələrini ciddi şəkildə düşündürür. ABŞ-də nəhəng texnologiya korporasiyası "Meta"nın 29 ştatın baş prokurorluğu ilə milyardlarla dollarlıq məhkəmə çəkişməsi, Fransa hökumətinin liseylərdə mobil telefonların istifadəsinə qəti qadağa qoyması, Avropa İttifaqının "Rəqəmsal Xidmətlər Aktı" vasitəsilə uşaqların məlumatlarının qorunması, Avstraliyanın 16 yaşından kiçiklər üçün sosial şəbəkələrin istifadəsini qadağan edən dünyanın ən sərt qanun layihəsini, Asiya ölkələrində (Cənubi Koreya və Çin) yeniyetmələrin gecə saatlarında onlayn oyun oynamasına və sosial şəbəkələrdən istifadəsinə qanuni məhdudiyyətlərin tətbiqi bu qlobal narahatlığın artıq ayrı-ayrı dövlətlərin lokal təşəbbüslərindən çıxaraq, bəşəri miqyasda zəruri bir müdafiə xəttinə çevrildiyini göstərir.

Bütün bu sərt tədbirlər və hüquqi addımlar bir həqiqəti hər zamankından daha çox bəyan edir: gələcəyimiz olan uşaqların və yeniyetmələrin psixoloji sağlamlığı, diqqət mərkəzi və real həyatla əlaqələri korporativ maraqlara və süni intellekt alqoritmlərinə qurban verilə bilməz. Texnologiya inkişaf etdikcə, cəmiyyətin və dövlətin bu rəqəmsal əsarətə qarşı göstərdiyi müqavimət də qətiyyətli olmalıdır.

Qeyd edək ki, Kaliforniyada bir həftədən çox davam edən gərgin məhkəmə prosesi son illərin ən səs-küylü texnoloji iddialarından biri oldu. ABŞ-nin 29 ştatının baş prokurorları "Meta" şirkətini ("Facebook" və "İnstagram" platformalarının sahibini) yeniyetmələr və uşaqlar arasında qəsdən psixoloji asılılıq yaradan alqoritmlər hazırlamaqda və bunu gizlətməkdə ittiham ediblər. İstintaq materialları və iştirakçı tərəflərin tələbləri çox sərt olub. "Meta"dan 1,4 trilyon dollar təzminat tələb olunur və sosial şəbəkə platformalarının yeniyetmələr üçün iş mexanizminin kökündən dəyişdirilməsi tələb edilib. Uzun sürən hüquqi mübarizədən sonra "Meta" 18 milyard dollara yaxın vəsaiti gənclərin internet təhlükəsizliyi təşəbbüslərinə yönəltməyə razılaşıb. Eyni zamanda şirkət "Facebook" və "İnstagram"ın yeniyetmələr üçün işləmə prinsiplərini dəyişdirəcəyini bəyan edib.

Müasir sosial şəbəkələr təsadüfən qurulmayıb. Onlar "dopamin ilgəyi" prinsipi ilə işləyir. "Sonsuz səhifələmə", bəyənmə bildirişləri və vizual təsdiq sistemləri yeniyetmələrin hələ tam formalaşmamış beyinlərində narkotikə bənzər asılılıq yaradır. Araşdırmalardan aydın olur ki, gündə 3 saatdan çox sosial şəbəkələrdən istifadə edən yeniyetmələrdə depressiya və təşviş problemi riski iki dəfə artır. "Meta"nın son addımı, əslində, illərdir tənqid olunan həmin sistemin korporativ səviyyədə qismən də olsa etirafı kimi qiymətləndirilə bilər.

Fransa hökuməti də uşaqları və gəncləri rəqəmsal ekranların zərərli təsirlərindən qorumaq üçün ardıcıl addımlar atır. Fransa Prezidenti Emmanuel Makron öz rəsmi sosial media hesabından yaydığı bəyanatla ölkənin bütün liseylərində mobil telefon istifadəsinin qadağan olunduğunu bəyan edib. O, bəyanatında qeyd edib: "Uşaqlarımızı ekranların mənfi təsirlərindən qorumaq üçün artıq gözləməyə vaxt yoxdur". Yeni qanunvericilik sentyabrın 1-də başlayacaq yeni tədris ilindən etibarən bütün ölkə üzrə qüvvəyə minəcək. Bu qərarın əsas hədəflərinə məktəb və sinif otaqlarında təhsilin keyfiyyətini aşağı salan yayındırıcı amillərin aradan qaldırılması, şagirdlərin dərslərarası fasilələrdə virtual aləmdən uzaqlaşıb bir-biri ilə canlı, real ünsiyyət qurmasının təbliği, gənclərin sosial medianın doğurduğu daimi müqayisə mühitindən, psixoloji təzyiqlərdən, asılılıqdan və kiberbullinqdən müdafiə olunması daxildir.

Xatırladaq ki, Fransa daha əvvəl ibtidai və orta məktəblərdə də oxşar məhdudiyyətlər tətbiq etmişdi. Bu yeni qərarla məktəbəqədər hazırlıqdan tutmuş liseyin sonuna qədər bütün təhsil pillələrində ekranlara qarşı vahid dövlət siyasəti formalaşmış olur.

Qlobal miqyasda hökumətlər texnologiya monopoliyalarına və uşaqların rəqəmsal təhlükəsizliyinə qarşı sərt tədbirlərə əl atırlar. Azərbaycanda da rəqəmsallaşma sürətlə gedir, hər bir məktəblinin geniş imkanlara çıxışı təmin olunur. Ölkəmizdə həyata keçirilən İT yönümlü layihələr, rəqəmsal siniflər və müasir təhsil mühiti gənclərimizin intellektual inkişafına güclü təkan verir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlara dəyişiklikləri təsdiq etməsi ölkədə həm uşaqların zərərli informasiyalardan qorunması, həm də rəqəmsal mühitin özünün tənzimlənməsi istiqamətində atılan mühüm hüquqi addımdır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

## Rəqəmsal transformasiya maliyyə sektorunun inkişafı üçün əhəmiyyət daşıyır

**Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən maliyyə sektorunda innovativ həll və xidmətlərin təşviqini dəstəkləyən görüşlərin keçirilməsi davam etdirilir.**



AMB-dən AZƏRTAC-a bildirilib ki, bu istiqamətdə mühüm müzakirə platforması kimi çıxış edən "Rəqəmsal transformasiyasının genişləndirilməsi və süni intellektin tətbiqi" "dəyirmi masa"sı bu dəfə sığorta sektoru və kapital bazarları təşkilatlarının nümayəndələrini bir araya gətirib.

Mərkəzi Bankın baş direktoru Sadiq Axundovun rəhbərliyi ilə keçən görüşdə təşkilatların rəqəmsal transformasiya üzrə məsul olan rəhbər şəxslər iştirak edib.

Sadiq Axundov ölkədə innovasiya ekosisteminin formalaşdırılması istiqamətində həyata keçirilən təşəbbüslərin əhəmiyyətindən danışıb. O, cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" mövzusunda keçirilmiş müşavirədə və iyun ayında Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilmiş Rəqəmsal İnkişaf Şurasının ilk iclasında müəyyən edilmiş prioritetlərin maliyyə sektorunda tətbiqinin zəruriliyindən bəhs edib.

Baş direktor rəqəmsal transformasiyanın sürətləndirilməsinin maliyyə sektorunun inkişafı və rəqabətqabiliyyətliliyi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edərək, yeni texnologiyalardan səmərəli və məsuliyyətli istifadə, rəqəmsal xidmətlərin inkişafı və innovasiya ilə risklərin idarə edilməsi arasında optimal balansın təmin edilməsinin dayanıqlı rəqəmsal maliyyə ekosisteminin formalaşdırılmasında mühüm rol oynadığını vurğulayıb.

Qeyd edək ki, görüş süni intellektin sektorda tətbiqi, rəqəmsallaşma prosesində sektor iştirakçılarının qarşılaşdıqları əsas çağırışlar və potensial imkanların müzakirəsi ilə davam edib.

## Köhnə texnologiya etibarlıdırmı?

**Hər gün həyatımızı asanlaşdıran yeni tətbiqlər, sürətli əməliyyat sistemləri və süni intellekt əsaslı yeniliklər ilə rastlaşırıq. Lakin insanlarda belə bir inam var ki, "ən yeni" həm də "ən təhlükəsiz" deməkdir. Kibertəhdidlərin artdığı bu dövrdə mütəxəssislər paradoksal bir həqiqəti ortaya qoyurlar: bəzən köhnə, demək olar ki, unudulmuş texnologiyalar ən müasir qoruma sistemlərindən daha etibarlıdır.**



Texnologiya dünyasında buna səbəb olan əsas amil kibercinayətkarların hədəf seçimləridir. Kiberdələduzlar əsasən qazanc əldə etmək üçün kütləvi istifadəçisi olan yeni sistemlərə hücum edirlər. Lakin istifadəçilər yeni alətlərə keçdikcə, köhnə sistemlər sadəcə unudulur.

Məsələn, tanınmış kibertəhlükəsizlik mütəxəssisi Mikko Hipönen illər əvvəl rəsmi dəstəyi dayandırılmış "Eudora" e-poçt proqramından istifadə edib. M.Hipönen kiberdələduzların artıq bu köhnə sistemi nəzərə almadıqlarını anlayaraq bunu "köhnəlmə vasitəsilə təhlükəsizlik" adlandırıb. Eynilə, kompüter alimi Mat Bişop qəsdən 1990-cı illərə aid köhnə proqram versiyasından istifadə edərək hazırladığı tələ sisteminin yeni versiyaya keçdikdən sonra dərhal daha çox hücuma məruz qaldığını aşkar edib. Xakerlər sadəcə olaraq köhnəlmiş sistemlərlə artıq maraqlanmırlar. Hətta kibertəhlükəsizlik mütəxəssisləri qeyd edirlər ki, milyonlarla insanın istifadə etdiyi köhnə əməliyyat sistemləri (məsələn, Windows XP) belə, sırf kiberhücumçuların diqqət mərkəzindən çıxdığı üçün bəzən nisbətən izolyasiya olunmuş mühitlərdə gözlənilməz sabitlik nümayiş etdirə bilir.

Bu, fərdi proqram təminatı ilə yanaşı, qlobal infrastrukturda və hərbi sahədə də özünü büruzə verir. İrlandiya Aviasiya İdarəsi son illərdə peyk əsaslı GPS sistemlərinin tez-tez radio-maneələrə məruz qalması səbəbindən köhnə, lakin sınaqdan keçmiş yerüstü radio naviqasiya mayaklarından istifadəni saxlamaq qərarına gəlib. Bənzər şəkildə, ABŞ Hərbi Dəniz Qüvvələri də elektron müdaxilələrə qarşı həssaslığı azaltmaq məqsədilə bir müddət əvvəl gəmi kapitanlarına ənənəvi kompasdan, yəni ulduzlar vasitəsilə naviqasiya etməyə imkan verən qədim alətlərdən istifadə etməyi yenidən öyrətməyə başlayıb.

Məlumatların qorunması sahəsində də köhnə texnologiyaların üstünlüyü danılmazdır. 1950-ci illərdən mövcud olan maqnit lentləri bu gün də qlobal şirkətlər və dövlət qurumları tərəfindən böyük həcmdə məlumatların saxlanılması üçün fəal şəkildə istifadə olunur. Kibercinayətkarların onlayn olaraq bu lentlərə birbaşa müdaxilə edə bilməməsi onları şirkətlərə qarşı yönələn "şantaj proqramı" hücumlarından qoruyur. Məlumatların saxlanılması üzrə qlobal nəhənglərdən olan "Quantum" şirkətinin rəhbərliyi də təsdiqləyir ki, internet şəbəkəsindən fiziki olaraq tamamilə ayrılan bu lent arxivi sistemləri rəqəmsal şantaj hücumları qarşısında demək olar ki, keçilməz sədd rolunu oynayır.

Mütəxəssislər gündəlik işlərdə ən son və yenilənmiş texnologiyalardan istifadə etməyi tövsiyə etsələr də, rəqəmsal təhlükəsizliyin qızıl qaydası dəyişməz olaraq qalır: "yeni" həmişə "ən yaxşı" demək deyil. Texnoloji tərəqqinin sürəti içində köhnə və ya analoq sistemlərin hansı məqamda və necə xilasedici rol oynaya biləcəyini bilmək rəqəmsal dünyada ən böyük üstünlüklərdən biridir.

*T.VERDİYEVA,*
*"Azərbaycan"*

## "DataRace"in ilk yarışında real biznes çağırışına 300-dən çox süni intellekt yanaşması təqdim olunub

**AZCON Holding şirkətlərindən olan Milli Süni İntellekt Mərkəzinin (MSİM) yaratdığı "DataRace" platformasının ilk yarışının nəticələri rəsmi mükafatlandırma mərasimində açıqlanıb.**




AZƏRTAC xəbər verir ki, "Apar"ın tərəfdaşlığı ilə keçirilən yarışda real biznes çağırışına 300-dən çox süni intellekt yanaşması təqdim olunub və ən yüksək nəticə göstərən iştirakçılar mükafatlandırılıb.

"DataRace" Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyasında müəyyən edilmiş "Süni intellekt sahəsində istedad və bacarıqların təkmilləşdirilməsi" istiqamətinin icrasına töhfə vermək məqsədilə yaradılıb. Platforma Süni İntellekt (Sİ) və data sahəsində istedadları real sektor çağırışları ilə bir araya gətirərək onların bilik və bacarıqlarının praktik problemlərin həllinə yönəldilməsi üçün mühit formalaşdırır.

"DataRace" modeli çərçivəsində biznes və dövlət qurumlarının real çağırışları Sİ və data istedadlarına təqdim olunur. İştirakçılar həmin problemlər üzrə müxtəlif yanaşmalar hazırlayır, çağırış sahibi isə fərqli həlləri müqayisə etmək və perspektivli yanaşmaları müəyyənləşdirmək imkanı əldə edir.

İlk yarış "Apar"ın real biznes ehtiyacı əsasında müəyyən edilmiş "İstifadəçi Rəylərinin Təsnifatı" (User Feedback Classification) mövzusuna həsr olunub.

İştirakçılar böyük həcmdə istifadəçi rəylərinin avtomatik təhlili və kateqoriyalaşdırılması üzrə süni intellekt yanaşmaları hazırlayıblar. Yarışa ümumilikdə 600 nəfər maraq göstərib, 300-dən çox iştirakçı isə öz yanaşmasını təqdim edib.

Mükafatlandırma mərasimində dövlət və özəl sektorun nümayəndələri, innovasiya, süni intellekt, texnologiya, İKT və rəqəmsal transformasiya üzrə rəhbərlər, insan resursları liderləri, eləcə də Sİ və data mütəxəssisləri iştirak ediblər. Tədbirdə istedadların real sektor ehtiyacları ilə əlaqələndirilməsi və biznes, dövlət və texnologiya ekosistemi arasında əməkdaşlıq imkanları müzakirə olunub.

Yarışın yekun nəticələrinə əsasən Əli Məhərrəmli birinci yeri tutaraq 3000 manat, Elnur Mirzəzadə ikinci yeri tutaraq 2000 manat, Nural Şükürlü isə üçüncü yeri tutaraq 1000 manat pul mükafatı qazanıb.

"DataRace"in növbəti mərhələsində müxtəlif sektorların real çağırışları əsasında yeni yarışların elan olunması və tərəfdaşlıq imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Platforma bununla Sİ istedadlarının praktik bacarıqlarının inkişafına və real sektor problemləri üzrə yeni yanaşmaların formalaşmasına töhfə verməyə davam edəcək.

# İQTİSADİYYAT

## Azərbaycan və Özbəkistanın mərkəzi bankları maliyyə ekosisteminin formalaşdırılması müzakirə olunub

**Azərbaycan Mərkəzi Bankının (AMB) sədr müavini Vüsal Xəlilov Özbəkistana işgüzar səfər çərçivəsində bu ölkənin Mərkəzi Bankının sədrinin birinci müavini Nodirbek Saydullayev ilə görüşüb.**

AMB-dən bildirilib ki, görüş çərçivəsində innovativ maliyyə ekosisteminin formalaşdırılması və maliyyə texnologiyalarının inkişafı üzrə mövcud yanaşmalar və gələcək perspektivlər, eləcə də bu sahədə ixtisaslaşmış təşkilatlar üçün maliyyələşmə mənbələrinə əlçatanlığın atırılması kimi aktual məsələlər müzakirə olunub.

Görüşdə, həmçinin institusional əməkdaşlıq imkanlarının dərinləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

## Ağstafalı fermerlər istehsalı məhsuldarlıq hesabına artırırlar

**Hər ili uğurla yola salan ağstafalılar cari ildə də kənd təsərrüfatının əksər sahələri üzrə yüksək göstəricilər əldə edirlər. Xüsusilə taxılçılıq üzrə bu mövsüm bütün gözləntilər özünü doğrultmuşdur.**



Qeyd edək ki, cari ilin məhsulu üçün 8187,2 hektar sahədə taxıl əkilmişdir. Onun 4812,3 hektarı buğda, 3374,9 hektarı arpa olmuşdu. Buğda sahəsinin hər hektarından 34, arpa sahəsinin hər hektarından isə 28 sentner məhsul götürülmüşdür ki, bu da əvvəlki ildəki göstəricidən çoxdur.

Taxıl istehsalında yenə də fərqlənən fermerlər olmuşdur. İri fermer təsərrüfatlarından Elxan Cürənli 130, Köçəsgər kənd sakinləri Gülbəniz Mehdiyeva 70, Elmira İsmayılova 20 və Komsomol Məmmədov 18 hektar buğda sahələrindən bol məhsul götürmüşlər. Taxıl istehsalında rayonun Göycəli, Köçəsgər, Eynallı, Dağ Kəsəmən və Qıraq Kəsəmən kəndləri fərqlənmişlər.

Taxıldan savayı, rayon üzrə 552,5 hektarda kartof, 1592,3 hektarda yazlıq və yaylıq günəbaxan, 264,3 hektarda qarğıdalı, 852,2 hektarda tərəvəz və bostan məhsulları əkilmişdir.

Meyvə bağlarından da yüksək məhsuldarlıq gözlənilir. Hazırda Ağstafada 1640,9 hektar meyvə bağları mövcuddur. Cari ilin ötən dövrü ərzində bağlardan 6148,6 ton meyvə yığılmışdır. Rayonda intensiv tipli bağların salınmasına da maraq artır. "Kur Fruit Company" MMC 160, Kolxəlifəli kəndində Səxavət Binnətov 55 hektarda intensiv meyvə, Aşağı Göycəli kəndində Nazim Əhmədov 6, Zəlimxan kəndində Elfaq Mamayev 1,49 hektarda intensiv fındıq bağları salmışlar. Həmin bağlardan yüksək məhsuldarlıq gözlənilir.

Rayonun 466,6 hektara yaxın üzüm bağı da var. Üzümçülük sahəsi gəlirli olduğu üçün fermerlər arasında bu sahəyə maraq getdikcə artmaqdadır. Ötən il hər hektar üzüm bağından orta hesabla 153 sentner məhsul götürən fermerlər bu il məhsuldarlığın yüksək olacağına ümid edirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## SOCAR-ın idarəsi 175,7 milyon dollarlıq qeyri-neft məhsulu ixrac edib

**Bu ilin yanvar-iyul aylarında SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 175,7 milyon dollar dəyərində qeyri-neft məhsulu ixrac edib.**

Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 68,6 milyon dollar və ya 28,1 faiz azdır. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac İcmalı"nın avqust sayında bildirilib.

Qeyd edək ki, 2025-ci ilin yanvar-iyul aylarında SOCAR-ın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin ixrac gəlirləri 244,3 milyon dollar olub.

## Füzuli və Qəbələdə hərrac yolu ilə 2 faydalı qazıntı yatağı istifadəyə verilib

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili Mərkəzi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi tərəfindən faydalı qazıntı yataqlarının istifadəyə verilməsi üzrə hərracların təşkili davam edir.**

Dövlət Xidmətindən AZƏRTAC-a bildirilib ki, faydalı qazıntı yataqlarının istifadəyə verilməsi ilə bağlı keçirilən növbəti hərracda Füzuli rayonunda yerləşən "Arayatlı" qum-çınqıl yatağı (38,7 ha) və Qəbələ rayonunda olan "Bumçay" qum-çınqıl yatağı (27,5 ha) istifadəyə verilib.

Hərracın nəticələri (yekun qiymət, hərracın qalibləri və digər məlumatlar) ilə Əmlak Məsələləri Dövlət Xidmətinin rəsmi saytı vasitəsilə tanış olmaq mümkündür.

## *İki ölkə, bir yol:* Özbəkistandan Azərbaycan üzərindən Avropaya çıxış

**Bu gün nəqliyyat-kommunikasiya əlaqələri dövlətlərarası iqtisadi münasibətlərin inkişafında və regional əməkdaşlığın dərinləşdirilməsində mühüm rol oynayır. Xüsusilə Avropa ilə Asiya arasında alternativ və etibarlı marşrutların şaxələndirilməsi fonunda Mərkəzi Asiya ilə Cənubi Qafqazı birləşdirən nəqliyyat dəhlizlərinin əhəmiyyəti getdikcə artır. Bu baxımdan, Azərbaycanla Özbəkistan arasında nəqliyyat və tranzit sahəsində əməkdaşlığın genişlənməsi diqqət çəkir.**

Əvvəlcə qeyd edək ki, Azərbaycanla Mərkəzi Asiyanı Xəzər dənizi üzərindən birləşdirən nəqliyyat marşrutları çox mühüm əhəmiyyət daşıyır. Xüsusilə Orta dəhliz bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır. Azərbaycanın müasir liman, dəmir yolu və avtomobil yolları Özbəkistanın nəqliyyat imkanları ilə birləşərək, iki ölkə arasında tranzit əlaqələrinin inkişafını genişləndirir. Bu əməkdaşlıq yükdaşımaların artmasına və ticarət əlaqələrinin möhkəmlənməsinə kömək edir. Əslində, Azərbaycan-Özbəkistan nəqliyyat əlaqələri yalnız iki ölkə arasında yük və sərnişin daşımalarının inkişafı məsələsi deyil, həm də Şərq-Qərb nəqliyyat bağlantılarının gücləndirilməsi və Mərkəzi Asiyanın dünya bazarlarına çıxış imkanlarının genişləndirilməsi baxımından strateji xarakter daşıyır.

Danılmaz faktdır ki, Azərbaycan-Özbəkistan münasibətləri indi yeni məzmun qazanaraq daha geniş əməkdaşlıq müstəvisinə keçib. İki ölkə arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafında nəqliyyat və tranzit əməkdaşlığı da mühüm yer tutur. Nəqliyyat bağlantıları ölkələr arasında ticarət və iqtisadi münasibətlərin inkişafına, eləcə də regionlararası əlaqələrin genişlənməsinə xidmət edir. Məhz bu kontekstdə hər iki ölkə arasında logistika və tranzit əlaqələrinin inkişafı bütövlükdə regionun iqtisadi və geosiyasi inteqrasiyasından dolayı mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün Mərkəzi Asiya və Azərbaycan böyük potensiala, eyni zamanda bundan da böyük inkişaf imkanlarına malik vahid geosiyasi və geoiqtisadi regiondur. Bu böyük, hətta deyərdim ki, yenidən yaradılmış və artıq kifayət qədər inteqrasiya olunmuş regionun inkişafının ümumi müsbət dinamikası da bu halda Özbəkistan və Azərbaycan arasında sıx qarşılıqlı əlaqələrdən asılıdır".

Nəqliyyat əlaqələrinin genişlənməsi iki ölkə arasında yükdaşımaların həcminin artmasına səbəb olub. Bunun nəticələrini artıq real rəqəmlərdə də görmək mümkündür. 2024-cü ildə Azərbaycan-Özbəkistan arasında tranzit daşımalarının həcmi əvvəlki illə müqayisədə 18 faizdən çox artaraq, 1,3 milyon tonu keçib. 2025-ci ildə də bu istiqamətdə müsbət dinamika davam edib və tranzit daşımaların həcmində təxminən 6,7 faiz artım qeydə alınıb. Bu faktlar göstərir ki, Azərbaycan və Özbəkistan arasında nəqliyyat əməkdaşlığı real yük axınlarına çevrilib. Üstəlik də nəqliyyat-tranzit-logistika sahəsində əməkdaşlığın genişləndirilməsi iki ölkənin coğrafi mövqeyi və dəyişən qlobal nəqliyyat reallıqları baxımından xüsusi əhəmiyyət daşıyır. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də bu istiqamətin əhəmiyyətini vurğulayaraq bildirib: "Əməkdaşlığın daha bir mühüm istiqaməti nəqliyyat-tranzit sahəsidir. Trans-Xəzər dəhlizinin potensialını birlikdə inkişaf etdirəcək, logistika infrastrukturunun səmərəliliyini artıracaq, daşımaları stimullaşdıracağıq". Bu yanaşma göstərir ki, nəqliyyat və tranzit əlaqələrinin inkişafı Bakı ilə Daşkənd arasında əməkdaşlığın əsas istiqamətlərindən biridir.

Azərbaycan-Özbəkistan nəqliyyat əməkdaşlığının əsas istiqamətlərindən biri hər iki ölkənin Orta dəhlizdə fəal iştirakıdır. Bu marşrut iki ölkəni sadəcə xəritə üzərində deyil, həm də yeni iqtisadi imkanlar üzərindən bir-birinə daha çox yaxınlaşdırır. Xəzərin sahilində yerləşən Azərbaycan Şərqlə Qərb arasında mühüm nəqliyyat körpüsü rolunu oynayır. Özbəkistan isə Mərkəzi Asiyanın mühüm iqtisadi mərkəzlərindən biri kimi bu dəhlizin imkanlarından yararlanaraq dünya bazarlarına çıxışını genişləndirir. Xüsusilə dənizə birbaşa çıxışı olmayan Özbəkistan üçün Orta dəhliz yeni ticarət yollarına açılan mühüm qapıdır. Qeyd edək ki, 2025-ci ilin yanvarında Azərbaycan, Özbəkistan və Türkiyə arasında keçirilən üçtərəfli görüşün Ankara Bəyannaməsində də Orta dəhlizin inkişafına xüsusi diqqət ayrılıb. Tərəflər nəqliyyat infrastrukturunun gücləndirilməsi, rəqəmsal həllərin tətbiqi, gömrük prosedurlarının sadələşdirilməsi və sərhəd keçidlərinin sürətləndirilməsi istiqamətində əməkdaşlığı davam etdirmək barədə razılığa gəliblər.



Unutmaq olmaz ki, Orta dəhlizin gücü yalnız onun keçdiyi coğrafiya ilə deyil, bu coğrafiyanı birləşdirən nəqliyyat xətləri ilə ölçülür. Bu baxımdan, dəmir yolu əlaqələri qarşıdakı dövrdə Azərbaycan-Özbəkistan əməkdaşlığının əsas hərəkətverici qüvvələrindən birinə çevrilə bilər. Məhz bu istiqamətdə mövcud imkanları və gələcək perspektivləri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru Aqil Ələsgərov belə dəyərləndirir: "Müasir çağırışlara uyğun olaraq, Azərbaycan-Özbəkistan nəqliyyat əməkdaşlığında rəqəmsallaşma, elektronlaşdırma xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, rəqəmsallaşma xərcləri azaldır, intensivliyi artırır, məlumat mübadiləsini və icazələrin verilməsini sürətləndirir, daşıyıcılar üçün inzibati yükü azaldır, tranzit proseslərinin şəffaflığını artırır. 2025-ci ildə Azərbaycan-Özbəkistan beynəlxalq avtomobil yükdaşımalarında elektron "İcazə" blanklarına tam keçid barədə razılığa gəliblər. İlk sınaq daşımaları 2025-ci ildə həyata keçirilib və elektron icazələrin mübadiləsi üzrə texniki imkanlar formalaşdırılıb. Üçtərəfli Azərbaycan-Türkiyə-Özbəkistan əməkdaşlığı çərçivəsində isə e-CMR və e-Permit kimi rəqəmsal həllərin tətbiqi təmin edilməkdədir ki, bu da regional nəqliyyat sistemlərinin inteqrasiyası baxımından mühüm addımdır".

Birgə logistika mərkəzlərinin yaradılması Azərbaycan-Özbəkistan nəqliyyat əməkdaşlığında gələcəyə hesablanan mühüm istiqamətlərdəndir. Son zamanlar imzalanan sənədlər, artan qarşılıqlı investisiyalar və yükdaşımaların dinamikası belə layihələr üçün möhkəm zəmin formalaşdırır. Təbii ki, logistika mərkəzləri sadəcə yüklərin saxlanıldığı və çeşidləndiyi məkanlarla məhdudlaşmamalıdır. Onlar gömrük, sığorta, ekspeditorluq, yük konsolidasiyası, elektron sənədləşmə və multimodal daşımaların idarə edildiyi müasir logistika qovşağı kimi ticarətin və iqtisadi əlaqələrin hərəkətverici halqası ola bilər. Belə bir addım iki ölkənin biznesi üçün yeni imkanlara yol açacaq mühüm imkan kimi qiymətləndirilməlidir.

Logistika mərkəzinin yaradılması hər iki ölkəyə açılan yeni qapılar deməkdir. Daha doğrusu, Özbəkistan şirkətlərinin Azərbaycan və Avropa bazarlarına çıxışını asanlaşdırmaq, eləcə də Azərbaycan biznesinin Mərkəzi Asiyanın geniş bazarlara yolunu qısaltmaq üçün vaxtında atılmış addımdır. Bu gün qurulan hər bir logistika bağlantısı sabahın daha sürətli ticarətinə, daha geniş bazarlarına və daha möhkəm iqtisadi tərəfdaşlığına aparan yollardan biridir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



## AÇG tezliklə sönməyəcək

### Bu yataqlar blokunda kifayət qədər təbii qaz ehtiyatı da var

**Bu gün Azərbaycan qazı dedikdə, adətən, ilk növbədə "Şahdəniz" yada düşür. "Şahdəniz"dən sonra ölkəmizin qaz yataqları sırasına yeni qoşulanlar da var ki, onlardan biri perspektivli "Abşeron"dur. Son vaxtlar "Azəri-Çıraq-Günəşli" (AÇG) qazından da çox bəhs olunur.**

Söhbət AÇG-nin uzun illərdir neftlə yanaşı verdiyi səmt qazından getmir. İndi bu yataqlar blokunun sərbəst təbii qazı (STQ) da var. Cari ilin birinci yarısında sərbəst təbii qazın çıxarılması ilə AÇG ilk kommersiya qaz hasilatı əməliyyatları mərhələsinə qədəm qoyub. Qeyd edək ki, blokda təxminən 4 trilyon kubfut çıxarıla bilən sərbəst qaz ehtiyatı var.

AÇG-də ilk STQ hasilatı əməliyyatları keçən il qazılmış və hazırda fəaliyyətdə olan neft laylarının altında yerləşən iki prioritet STQ layını - daha dayaz Qırmaküstü Qumlu və daha dərin Qırmakıaltı Qumlu lay dəstlərini hədəfləyən ilk hasilat quyusunda başlanıb. Quyu Qırmakiüstü Qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyib, Qırmakıaltı Qumlu lay dəstində isə yüksəktəzyiqli qaz ehtiyatlarının mövcudluğu aşkar olunub.

İlk STQ hasilatı əməliyyatları Qırmakıaltı Qumlu lay dəstində başlanıb və ilkin dövr hasilatı olmaqla yanaşı, həmçinin quyuda və lay dəstində sınaq işlərinin aparılmasını da əhatə edir.

Quyudan hasil edilən qaz və kondensat neft və qaz işlənməsi sistemlərinin inteqrasiyası yolu ilə AÇG infrastrukturundan istifadə edilməklə Səngəçal terminalına göndərilir. Bu həm də o deməkdir ki, mövcud dəniz obyektlərindən səmərəli istifadə üçün imkan yaranır.

STQ-dən əlavə, ilk hasilat quyusu Qırmakıaltı Qumlu lay dəstinin dibində, qaz və su laylarının arasında yerləşən neft halqası da aşkar edib. İlk neft halqası quyusu "Dərinsulu Günəşli" platformasından qazılmaq üçün planlaşdırılıb. May ayında burada qazma işlərinə başlanıb. Bu quyuda isə qazma əməliyyatlarının cari ilin ikinci yarısında başa çatacağı nəzərdə tutulur. İlk neft halqası quyusundan həmçinin əlavə qiymətləndirmə məlumatlarının əldə olunması da gözlənilir ki, bu da AÇG sahəsində gələcək işlənmə imkanlarının dəyərləndirilməsinə kömək edəcək.

Ümumiyyətlə isə iyun ayının sonunda AÇG-də 150 neft hasilatı, 51 su injektor və 11 qaz injektor quyusu istismarda olub.

Xatırladaq ki, hazırda AÇG-də "Çıraq", "Mərkəzi Azəri" , "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və ACE platformalarından hasilat əldə olunur. Birlikdə bu qurğular vasitəsilə gündə orta hesabla 323 min barel neft alınır. AÇG-nin əməliyyatçısı olan BP şirkətinin məlumatına əsaslanaraq deyək ki, bu, cari ilin birinci yarısında ümumilikdə təxminən 59 milyon barel, yəni 8 milyon ton neft təşkil edib.

Qaldı ki, səmt qazına, 2026-cı ilin 6 ayında AÇG-dən Azərbaycan dövlətinə, əsasən, Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 11 milyon kubmetr, ümumilikdə isə 2 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulub.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Neft ucuzlaşır

**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,46 dollar azalaraq 89,24 dollar olub.**

AZƏRTAC xəbər verir ki, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,36 dollar azalaraq 83,17 dollar təşkil edib.

## Dəmir yolunun Xırdalan-Biləcəri sahəsi təmir olunur

**"Azərbaycan Dəmir Yolları" QSC (ADY) Xırdalan-Biləcəri sahəsində infrastrukturun yenilənməsi çərçivəsində dəmiryol körpüsünün bərpasına başlayıb. Görülən işlərin əsas məqsədi xətt üzrə qatarların təhlükəsiz və etibarlı hərəkətinin təmin edilməsidir.**

Körpüdə bərpa işlərinin başlaması ilə şəhərətrafı qatarların hərəkət qrafikində müvəqqəti dəyişikliklər edilib. Belə ki, Xırdalan-Bakı istiqamətində hərəkət sürəti və istiqamətinin dəyişməsi ilə əlaqədar dəyişikliklər səbəbindən qatarların çatma müddəti müvəqqəti olaraq artıb.

Yeni qrafik sərnişindaşıma xidmətinin davamlılığını təmin etməklə yanaşı, ərazidə bərpa işlərinin tələb olunan təhlükəsizlik şərtləri çərçivəsində aparılmasına imkan verir. Bununla yanaşı, şəhərətrafı qatarların gündəlik reys sayı artırılaraq 84-dən 90-a çatdırılıb.

Körpünün bərpası başa çatdıqdan sonra sözügedən istiqamət üzrə sürət həddi artırılacaq və qatarların hərəkət qrafiki müvafiq qaydada tənzimlənəcək. Eyni zamanda Xırdalan-Sumqayıt xətti üzrə sərnişindaşıma bərpa ediləcək.




ADY üçün əsas prioritet bərpa işlərini mümkün qədər operativ şəkildə, eyni zamanda bütün təhlükəsizlik tələblərinə tam riayət etməklə yekunlaşdırmaqdır. Hərəkətin tədris ili başladıqdan qısa müddət sonra tam bərpası nəzərdə tutulur.





# Mədəniyyət





● Ömürlər, talelər

**Yazıçı və şairlər yazdıqları əsərlərdə, rəssamlar çəkdikləri rəsmlərdə, aktyorlar tamaşa və filmlərdə yaratdıqları obrazlarda yaşayırlar. Heç vaxt unudulmur, həmişə xatırlanır və yad edilirlər.**

Belələrindən biri də həmişə hörmət və ehtiramla xatırlanan, Azərbaycan ədəbiyyatının, mətbuatının inkişafında əvəzsiz xidmətlər göstərmiş görkəmli yazıçı, publisist, dramaturq, tərcüməçi, yumoristik novellalar, hekayələr müəllifi Seyfəddin (Abbasov) Dağlıdır. Bu ad, bu imza bütün sənət adamları və oxucular üçün çox doğmadır.

Təəssüflər olsun ki, Seyfəddin Dağlının ömrü elə də uzun olmayıb. Cəmi 62 il yaşayıb. Bütün yaradıcılığını bu illərə sığışdırıb, bu illərdə yazıb-yaradıb. O, mənalı ömür yaşayıb. Dəyərli əsərləri ilə ədəbiyyatımıza da, mədəniyyətimizə böyük töhfələr verib.

1944-1946-cı illərdə keçmiş ittifaq qoşunlarının tərkibində İranda xidmətə göndərilib. Faşizmə qarşı müharibənin davam etdiyi günlərdə yazıçının qələmə aldığı felyetonları və satirik hekayələri "Vətən uğrunda" jurnalında, "Ədəbiyyat", Təbrizdə çıxan "Vətən yolunda" qəzetlərində dərc olunub.

Seyfəddin Dağlı 1952-cı ildə Lenin adına Moskva Hərbi-Siyasi Akademiyasının Redaktorluq fakültəsində təhsil almağa göndərilib. 1956-cı ildə Moskvada təhsilini başa vurduqdan sonra ordu sıralarından tərxis olunaraq doğma vətənə qayıdıb. Jurnalist, yazıçı və dramaturq kimi ədəbi fəaliyyətini davam etdirib.



## Böyük ədəbiyyat yolunda öz cığırı vardı

Seyfəddin Dağlı 1921-ci il avqustun 27-də Xızıda dünyaya göz açıb. Yenicə yaşamağa başladığı ömrün 13-cü günü anası Qəməri itirib. Seyfəddinin atası Əlağa Abbasov dövlət qulluqçusu olduğuna görə müxtəlif bölgələrdə işləyib. Buna görə də Seyfəddin ata-babası Bəhlul kişinin ümidinə qalıb. Babası savadsız olsa da, xeyirxahlığı və səxavəti ilə tanınıb.

Seyfəddin uşaq ikən Bəhlul kişi dünyasını dəyişdi. Beş yaşı olanda Seyfəddinin ailəsi Bakıya köçdü. Orta məktəbi şəhərdə oxudu. Atasının ikinci evlilikdən beş uşağı dünyaya gəldi. Analığı Seyfəddinlə pis rəftar etmirdi. Amma nə qədər yaxşı olsa da, doğma anasının yerini vermirdi.

Seyfəddin Dağlı bədii yaradıcılığa hələ orta məktəb illərində yazdığı şeir və satirik hekayələrlə başlayıb. Sənaye texnikumunda təhsil alanda "Kommunist" qəzeti ilə əməkdaşlıq edib. Gələcəyin yazıçısı əmək fəaliyyətinə tələbə ikən başlayıb. "Kommunist" və "Ordu" qəzetlərində müxtəlif vəzifələrdə işləyib. Dövlət Radio Komitəsində baş redaktor, Bakı Televiziya studiyasının direktoru və sədr müavini vəzifələrində çalışıb. "Azərbaycanfilm" kinostudiyasında ssenari redkollegiyasının üzvü, "Yazıçı" nəşriyyatında redaktor olub.

Müharibə başlayanda Seyfəddin Dağlı ordu sıralarına çağırılıb. Yazıçı ömrünün 15 ilini hərbi xidmətdə keçirib. "Ordu" qəzetinin ədəbi işçisi, "Diviziya" qəzetinin redaktoru vəzifələrində xidmət edib.

Görkəmli yazıçı 1953-cü ildə Azərbaycanın böyük dramaturqu Cəfər Cabbarlının qızı Gülarə xanımla ailə həyatı qurub. Nümunəvi ailə başçısı olub. Asudə vaxtlarını övladlarına həsr edib. Böyük oğluna sevimli babasının adını yaşatmaq üçün Bəhlul qoyub. İkinci oğlunun adı Altaydır. Sevimli qızı Qəmərə isə anasının adını verib.

Seyfəddin Dağlı 1959-1976-cı illərdə oxucuların böyük maraqla izlədiyi "Kirpi" jurnalının baş redaktoru işləyib. Yazıçının yaradıcılığı həmin illərdə daha məhsuldar olub. O illərdə "Kirpi" respublikada çox populyar jurnal idi. Bu nəşr haqqı, ədaləti müdafiə edib, cəmiyyətdəki nöqsanları göstərib, rüşvətxorlara, əliəyrilərə, bürokratlara qarşı mübarizə aparıb. "Kirpi" Seyfəddin Dağlının rəhbərliyi altında bu vəzifələrin öhdəsindən layiqincə gəlib.

Seyfəddin Dağlı bənzərsiz üslubu ilə Azərbaycan ədəbiyyatının satirik məktəbinin görkəmli nümayəndələri Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir kimi böyük söz ustalarının ənənələrini davam etdirib. Onun satirası, yumoru həm kəskinliyi, həm də sadəliyi və dəqiqliyi ilə seçilib. Ona görə də oxucular yazıçının əsərlərini böyük maraqla izləyib. Bu maraq isə boş yerdən yaranmayıb. Seyfəddin Dağlı jurnalistikaya 1938-ci ildə oxucuları güldürdüyü qədər düşündürən felyetonlarla gəlib. Mövzusu yaşadığı cəmiyyətin həyatından götürülmüş bu felyotonlar elə ilk cümlələrindən oxucuların diqqətini özünə çəkib. Kiçik yaşlarından bədii yaradıcılığa maraq göstərən Seyfəddin Dağlının "Dəniz kəşfiyyatçısı" adlı ilk kitabı 1948-ci ildə nəşr edilib. Yazıçı bu kitabı ilə böyük ədəbiyyata doğru kiçik cığır açıb. Sonrakı illər bu cığırı "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək", "Təzə gəlin", "Kölgələr pıçıldaşır" pyesləri, "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" və başqa kitabları ilə daha da genişləndirib. Onun qələmindən çıxan əsərləri oxucular rəğbətlə qarşılayıblar.

Seyfəddin Dağlının əsərləri bir çox dillərə tərcümə olunmuş, müxtəlif ölkələrdə çap edilmişdi. Yazıçının əsərləri "Karyera Noqtalorova" adı ilə Moskvada "Sovetski pisatel" nəşriyyatında rus dilində nəşr olunmuşdur. "Pravda" nəşriyyatında "Biblioteka Krokodila" seriyasından S.Dağlının hekayə və felyetonları da kütləvi tirajla rus dilində kitabça şəklində buraxılmışdır.

Ürəyi, qəlbi sözlə döyünən Seyfəddin Dağlı yaradıcılığı boyu dəyərli dram əsərləri, romanlar, povestlər, çoxlu sayda hekayə, novellalar və felyotonlar yazmışdır. Belə zəngin yaradıcılığı ilə yanaşı, yazıçı maraqlı tərcümələr də etmiş, bu sahədə də bacarığını göstərmişdir.

Dramaturgiya sahəsində də qələmini sınayan S.Dağlı "Aydınlığa doğru" dramını və "Adı sənin, dadı mənim" komediyasını yazmışdır. Pyesləri Akademik Dram Teatrında, Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulmuşdur.

Yazıçının xalqımız qarşısındakı xidmətləri layiqincə qiymətləndirilib. Bu gün Azərbaycan SSR Dövlət mükafatı laureatı Seyfəddin Dağlının adına Bakıda küçə var.

Seyfəddin Dağlı 1983-cü il yanvarın 18-də dünyasını dəyişmişdir. Qızı Qəmər atası haqqında xatirələrində deyir: "Nə qədər yaxşı sözlər, yaxşı hisslər varsa, atama aid edirəm. Atam çox dürüst, çox zəhmətkeş, namuslu, öz xalqını istəyən bir insan idi. Kömək lazımdırsa, tanımadığı adama belə, kömək edərdi. Fikirləşirəm, bir dənə mənfi xüsusiyyətini tapa bilmirəm. Zəhmi vardı, amma çox zarafatcıl adam idi".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Ustadlarımız

## Şuşanın ilk Bülbülü

**Qədim Şuşa onun üçün yalnız dünyaya göz açdığı, boya-başa çatdığı yurd deyildi. Pünhan duyğularının, şirin xəyallarının ilk şahidi də bu şəhər idi. Bənzərsiz səsi ilə ifa etdiyi xalq mahnılarının, muğamların da ilk dinləyiciləri Şuşanın başıqarlı dağları, saf bulaqları, yamyaşıl yamacları idi.**

Bu şəhərdə qeyri-adi səsi olanlar çox olub və bu çoxluğun içində istedadı olanın görünməməsi, diqqətdən kənarda qalması mümkünsüzdü. Çünki Şuşada musiqi duyumu olmayan, musiqidən baş çıxarmayan tapılmazdı. Odur ki, istedadı olanlar üçün bu bənzərsiz şəhərdə musiqiçi, xanəndə kimi tanınmaq və məşhurlaşmaq çətin deyildi.

Şuşanın musiqi mühitində yetişən sənətkarların hər birinin taleyində bu şəhərin özünəməxsus bir izi var. Gözəl səsi ilə Bülbülcan kimi tanınan Əbdülbaqi Zülalovun sənət yolu da belə bir mühitdən başlayıb. 185 il öncə - 1841-ci ildə Şuşada dünyaya göz açan Əbdülbaqi Kərbəlayi Əli oğlu Zülalov da bütün şuşalılar kimi, xalq mahnılarımızı, muğamlarımızı mahir xanəndələrin ifasında dinləyə-dinləyə böyüyüb. Gözəl səsini və meylini görüb musiqi təhsili alması üçün onu xarrat Qulunun məktəbinə qoyublar. Məktəbi bitirdikdən sonra tarzən Sadıqcanla birgə yalnız Qarabağda deyil, Şəkidə, Şirvanda və Gəncədə məclislərdə, el şənliklərində çıxış edib.

Əbdülbaqi səsi və ifaçılıq qabiliyyəti ilə gənc yaşlarından seçilən xanəndələrdən idi. Xan qızı Natəvanın bağında qurulan məclislərdə, 1873-cü ilin avqustunda Şuşaya su çəkdirməsi münasibətilə təşkil olunan şənlikdə o da iştirak edib. Musiqişünas Mahmud ağanın dəvəti ilə dəfələrlə Şamaxıya gedib, orada təşkil edilən musiqi müsabiqələrində iştirak edib və birincilik qazanıb. Beləcə, şöhrəti vəteninin hüdudlarını aşıb. Cavan yaşından Qafqazda və İranda bir çox məclislərdə iştirak edib.

1875-ci ilin əvvəllərində Tiflisə köçən sənətkar ömrünün 30 ilini orada keçirib. Böyük tarzən Sadıqcanın müşayiəti ilə Tiflisdə ilk çıxışından sonra onun şöhrəti sürətlə yayılıb. Xanəndə kimi bütün Gürcüstanda tanınıb. Gürcü dilini öyrənən Əbdülbaqı Azərbaycan muğamlarını həm də gürcü dilində oxuyub. Bu dildən başqa, ləzgi, kumık dillərini də öyrənib, həmin dillərdə mahnılar oxuyub.

Gözəl səsi, mahir ifası ona Bülbülcan adını qazandırıb. Bu ad sonralar sənətkarın adı ilə elə qaynayıb-qarışıb ki, Əbdülbaqi Zülalov Azərbaycan musiqi tarixində daha çox Bülbülcan kimi tanınıb.

Tiflis o illərdə Cənubi Qafqazın mədəniyyət mərkəzlərindən idi. Burada keçirilən xeyriyyə konsertlərində yerli sənətçilərlə yanaşı, məşhur rus, italyan müğənniləri və musiqiçiləri də iştirak edirdilər. Bülbülcan belə tədbirlərin fəal iştirakçılarından olub. O, tarzən Sadıqcanla birlikdə Tiflisdə yaşayan yoxsul müsəlmanların xeyrinə təşkil olunan konsertlərdə də səhnəyə çıxıb. Ümumiyyətlə, sənətkarın şöhrəti o qədər böyük olub ki, Tiflisdə yüksəksəviyyəli məclislərin bir çoxu Bülbülcan və onun 6 nəfərdən ibarət dəstəsi olmadan keçirilməzdi. Teatr tamaşalarının fasilələrində, konsertlərdə və müxtəlif məclislərdə onun ifaları dinlənilərdi.

Dövrün mətbuatı da Bülbülcanın sənət fəaliyyətinə biganə qalmayıb. Tiflisdə nəşr olunan "Ziya" qəzetində belə bir elan dərc edilmişdi: "Bu yaxın vaxtda füqəra və misginlərdən ötrü Tiflisdə bina olunan İran xəstəxanasının sərmayəsinə qüvvət və mənfəət vermək qəsdilə həmin ayın 8-də Tiflisin teatr imarətində ibrətnüma və fərəh-əfza, növbənöv görməli və eşitməli tamaşalar olacaqdır. Avropa və Şərq nəğmələrində xoşavaz xanəndələr vasitəsilə muğamat musiqi icra olunacaqdır və Tiflis əhlinin dildadəsi olan xanəndə və sazəndələrdən Əbdülbaqi və Sadıq dəxi hazır olacaqdır. Əvvəlimınci dəfədir ki, Tiflis və İran müsəlmanları bu gün (bunun kimi) baisi-fəxr (fəxr eləməli) və tərəqqi olan payəyə (pilləyə) qədəm qoyacaqlar". "Qafqaz" qəzeti isə yazmışdı: "Bu gün 22 iyun 1886-cı ildə Arsurini teatrının binasında həvəskarlar tərəfindən tatar dilində M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası oynanılacaq. Tamaşanın fasilələrində Əbdülbaqinin sazəndə dəstəsi çalacaqdır".



Xanəndənin həyatının maraqlı məqamlarından biri də 1888-ci ildə III Aleksandrın Qafqaz səfəri şərəfinə Tiflisin Müctəhid bağında qurulan məclisdə çıxışı olub. Onun ifasından vəcdə gələn çar canişininə xanəndənin at üstündə Kovalenski prospekti ilə (hazırda Rustaveli prospekti) keçməsinə icazə verilməsini tapşırıb.

Sənətkarın yüksəksəviyyəli məclislərdə çıxışı sonrakı illərdə də davam edib. 1900-cü ilin mayında bir neçə gün Tiflisdə qalan Müzəffərəddin şahın şərəfinə saray bağında təşkil olunan məclisdə çıxış edən xanəndələr arasında Bülbülcan da olub. Onun ifasından heyran qalan şah sənətkarı "Şiri-xurşid" ordeni ilə təltif edib. 1904-cü ildə isə I Nikolayın qardaşı knyaz Mixail Romanov Tiflisə səfəri zamanı "Edem" bağında təşkil edilən ziyafətdə Bülbülcanın ifasını dinləyib. Xanəndənin sənətindən heyrətlənən knyaz barmağındakı dörd karatlıq brilyant üzüyü çıxararaq ona bağışlayıb.

Bülbülcan 1905-ci ildə doğma Şuşaya qayıdıb. Yetim qalmış qardaşı uşaqları Əli və Qəmbərin qayğısına qalıb, onları boya-başa çatdırıb.

Böyük sənətkar 1920-ci ildə Bakıya köçüb. Bülbülcanı dahi bəstəkar Üzeyir bəy Hacıbəyli muğam ustası kimi dərs deməyə dəvət edib. Qocaman xanəndə müğənnilik fəaliyyətini davam etdirməklə yanaşı, gənc xanəndələr yetişdirib. O, əvvəlcə qısa müddət "Şərq musiqisi kursları"nda, 1923-cü ildən isə Azərbaycan Dövlət Türk Musiqi Məktəbində muğamdan dərs deyib.

Bülbülcanın ifası, sənətkarlıq məharəti bir çox xanəndə üçün nümunə, məktəb olub. Cabbar Qaryağdı oğlu, Musa Şuşinski, Məşədi Məmməd Fərzəliyev, Şəkili Ələsgər, Vahab bəy, Molla Abbas, Seyid Şuşinski kimi istedadlı xanəndələr Bülbülcanın yaradıcılığından bəhrələniblər. Cabbar Qaryağdıoğlu zəngulə vurmağı Bülbülcandan öyrəndiyini etiraf edib.

Məşhur musiqişünaslar ustad xanəndə Bülbülcanın barəsində xoş sözlər yazıblar. Üzeyir bəy Hacıbəyli məqalələrinin birində Qafqaz millətləri arasında tanınmış və beynəlmiləl truppa düzəltmiş musiqiçilərdən bəhs edərkən onun da adını qeyd edib: "Tarzən Sadıqların, xanəndə Əbdülbaqilərin adları və sədaları Qafqazın hər bir yerində məşhur olub beynəlmiləl bir mahiyyətdə ad qazanmışlar". Cabbar Qaryağdıoğlu isə "Keçmiş Azərbaycan musiqisi" adlı xatirələrində yazıb: "Xarrat Qulunun şagirdi, bütün Qafqazda məşhur olan xanəndələrdən Əbdülbaqi Zülalov, "Zabul" dəstgahını çox təmtəraqla oxuyardı. "Hasar"a keçəndə elə bir səda ilə oxuyardı ki, heç bir kəs bunu bacarmazdı. Çünki "hasar" zəngulə istəyən nəğmədir, Əbdülbaqi isə gözəl zənguləli səsə malik olduğundan bu muğamı layiqincə ifa edərdi".

Bülbülcan 86 yaşında - 1927-ci ilin avqustunda Bakıda vəfat edib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● Qadın yazarlarımız

## Əsərlərinin mövzusu bu gün də aktualdır

**Azərbaycanın qadın yazıçıları arasında uğurlu və məhsuldar yaradıcılığı ilə oxucuların qəlbində əbədiyaşarlıq qazananlardan biri də Xalidə Hasilovadır.**

Xalidə Məmməd qızı Hasilova 1920-ci il aprel ayının 19-da Azərbaycanın dilbər guşələrindən olan Zaqatalada dünyaya göz açmışdır. Orta məktəbi bitirdikdən sonra Zaqatala Pedaqoji Texnikumunda təhsil almışdır. Gənc müəllim bir müddət doğma Qımır kəndində müəllimlik etmişdir. 1939-cu ildə təhsilini artırmaq arzusu ilə Leninqrad Dövlət Universitetinin (indi Sankt-Peterburq Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olmuşdur. 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar o, Bakıya qayıtmış və Azərbaycan Dövlət Universitetinin Filologoya fakültəsində ali təhsilini davam etdirmişdir.

Gənc nəslin təlim-tərbiyəsi ilə yanaşı, kəndli qadınların savadlanması qayğısına qalan Xalidə xanım ibtidai və orta məktəblərin Birinci Azərbaycan Qurultayının nümayəndəsi kimi "Şərq qadını" ("Azərbaycan qadını") jurnalının 1938-ci il 1-ci sayında "Kəndimizin mədəni cəhətcə daha da yüksəlməsinə çalışacağam" adlı məqaləsi ilə publisistik fəaliyyətə başlamışdır. Yeniyetməlik illərindən poeziya ilə maraqlanan Xalidə xanımın ilk şeirləri isə 1949-cu ildə "İnqilab və mədəniyyət" qəzetində işıq üzü görmüşdür. İlk kitabının sevincini 1950-ci ildə yaşayan Xalidə Hasilova demək olar ki, əli qələm tutandan bədii yaradıcılıqla məşğul olmuşdur. O, əsasən, uşaqların və gənclərin həyatından maraqlı povestlər yazan müəllif kimi tanınmışdır.

Onun "Kiçik hekayələr" adlı ilk kitabı 1950-ci ildə çapdan çıxmışdır. Uşaq ədəbiyyatı yaradıcılarından biri olan yazıçının yaradıcılığı həmişə rəngarəngliyi və mövzu dairəsinin genişliyi ilə diqqət çəkmişdir. Yaradıcılığında həyat hadisələrinə dərindən nüfuz etmiş, düşünərək seçmiş, daha xarakterli obrazlar yaratmışdır. Yazıçı öz yaradıcılığında ən az toxunulan mövzulara müraciət etmiş, hər bir surətin özünəməxsus boyalarla xarakterini dolğunluğu ilə göstərə bilmişdir. Onun "Sular durulur", "Onun taleyi", "Kaman", "Çəhrayı rəng", "Çətin yollar boyunca", "Nəğməli Könül" və s. povestləri buna misaldır.

Yazıçının nəsr əsərlərində gənclərin həyatı da öz əksini tapmışdır. Müəllif əsərlərində məktəbli qəhrəmanlarının sonrakı taleyinə də biganə qalmamışdır. Məsələn, "Dəniz çıraqları" povestində o, texniki peşə məktəbini bitirəndən sonra neft sahəsində çalışan gənclərdən bəhs etmişdir.

X.Hasilova bədii tərcümə ilə də məşğul olmuşdur. Onun məşhur türk ədibi Əziz Nesinin uşaqlar üçün yazdığı hekayələri "İndiki uşaqlar möcüzədir" kitabı kimi balaca oxuculara təqdim etməsi, C.Osayevin "Sehirli söz", Ş.Perronun "Büllur başmaq", H.Tixonovun "İgid partizan", İ.Pereranın "Zənci balası Atolo", M.Bayramın "Günəş gözlü Mustafa Kamal" kimi tərcümə əsərləri oxucular tərəfindən maraqla qarşılanmışdır. Qeyd edək ki, Xalidə xanımın özünün əsərləri də müxtəlif xarici dillərə tərcümə olunmuşdur. O, "Bir sahilin adamları" povestinə görə Dövlət mükafatına layiq görülmüşdür.

Məhsuldar yazıçı çoxşaxəli yaradıcılığında mənəvi-əxlaqı mövzulara da yer vermişdir. Onun "Kaman", "Çəhrayı rəng", "Ana fəryadı" povestləri, "Onun taleyi", "Sular durulur", "Ucqar bir kənddə" romanları da məhz bu səpgidədir.

Yazıçı-jurnalist bir sıra nəzəri məqalələrin də müəllifidir ki, onların əksəriyyəti uşaq ədəbiyyatı problemləri ilə əlaqədardır. "Uşaq ədəbiyyatında ədəbi tənqid haqqında", "Gözəl duyğular", "Uşaqlara yüksəkkeyfiyyətli əsərlər verək", "Ədəbiyyat və tərbiyə" və s. buna ən yaxşı nümunələrdir.



Xalidə Hasilovanın dramaturgiya sahəsindəki xidmətləri də diqqətəlayiqdir. Yazıçının sosial həyatın müxtəlif sahələrini dolğunluğu ilə özündə əks etdirən 5 pyesi Azərbaycan teatrlarında tamaşaya qoyulmuşdur.

Xalidə Hasilova müxtəlif illərdə "Azərbaycan qadını" jurnalında ədəbi işçi, "Göyərçin" jurnalının baş redaktoru, uzun illər isə "Azərbaycan qadını" jurnalının baş redaktoru olmuşdur. Onun zəngin ictimai fəaliyyəti Azərbaycan qadınlarının çoxşaxəli problemləri ilə bağlı idi. Uzun müddət Azərbaycan Qadınlar Şurası Rəyasət Heyətinin üzvü olan yazıçı seçilmişdir. Macarıstan, Almaniya, İsveçrə, İran, Yaponiya və digər xarici ölkələrdə səfərlərdə olmuşdur.

İctimai xadim, tanınmış publisist, yazıçı-jurnalist, tərcüməçi olan X.Hasilovanın Azərbaycan ədəbiyyatı və mədəniyyəti sahəsindəki xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, Əməkdar mədəniyyət işçisi fəxri adına, "Şərəf nişanı" və "Qırmızı Əmək Bayrağı" ordenlərinə layiq görülmüşdür.

Azərbaycan ədəbiyyatı və mətbuatında böyük xidmətləri olan Xalidə Hasilova 1996-cı ildə vəfat etmişdir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## Prezident Kitabxanasında Beynəlxalq Azərbaycan Muğamı Günü qeyd edilib

**Prezident Kitabxanasının İncəsənət ədəbiyyatı zalında Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi gününə həsr olunmuş "Milli musiqi irsi və mənəvi dəyərlər missiyası Prezident Kitabxanasında" adlı tədbir keçirilib.**



Kitabxanadan AZƏRTAC-a bildirilib ki, əvvəlcə mövzuya həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Prezident Kitabxanasının direktoru, professor Afət Abbasova muğam sənətinin milli kimliyimizin və zəngin mədəni yaddaşımızın ali ifadəsi olduğunu vurğulayıb. O, Beynəlxalq Azərbaycan Muğamı Gününün əhəmiyyətindən danışaraq, bu irsin dünya səviyyəsində tanınmasında, UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilməsində və keçirilən muğam müsabiqələri vasitəsilə gənc istedadların yetişməsində Birinci vitse-prezident Mehriban Əliyevanın müstəsna xidmətlərini qeyd edib.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Şərəf Cəlilli, tibb elmləri doktoru, professor Sudeyif İmamverdiyev, Xalq rəssamı, akademik Ömər Eldarov, Xalq artisti Mələkxanım Əyyubova, Beynəlxalq Muğam Mərkəzinin direktoru Sahib Paşazadə, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin direktoru Elmira Ələkbərova, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədrinin baş müşaviri Pərvanə İsmayılova çıxış edərək, milli-mənəvi dəyərlərin qorunması və zənginləşdirilməsi barədə dəyərli fikir və mülahizələrini bölüşüblər.

Nizami rayon Mədəniyyət Mərkəzinin direktoru Laura Quliyeva Mərkəzin təşkilatçılığı ilə "Vətənə açılan kiçik ürəklər" layihəsi çərçivəsində təqdim olunan və böyük maraqla qarşılanan "Azərbaycan qadını" mahnısının ərsəyə gəlmə tarixi və yaradıcılıq prosesi barədə məlumat verib. Ardınca əsər müğənni Elnur Məmmədov və 3 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbinin şagirdlərinin təqdimatında səsləndirilib.

Tədbirin bədii hissəsində Xalq artistləri Nəzakət Teymurova və Mələkxanım Əyyubova musiqi nömrələri ilə çıxış ediblər.

"Vətənə açılan kiçik ürəklər" layihəsinin iştirakçılarına təşəkkürnamələr təqdim edilib.

## *Malik MANSUROV:* "Muğamı sevmək üçün onu dinləmək lazımdır"

**Muğama marağı məcbur etmək olmaz. Əvvəlcə insan bu musiqini eşitməli, onun səslənməsinə öyrəşməli, sonra isə tədricən onun xüsusiyyətlərini ayırd etməyi və başa düşməyi öyrənməlidir. Muğamla məhz belə tanışlıq bu sənətə sevginin başlanğıcıdır.**



Bunu AZƏRTAC-a müsahibəsində Azərbaycan Milli Konservatoriyasının instrumental muğam kafedrasının müdiri dosent, Xalq artisti Malik Mansurov deyib.

Bunu cazın qavranılması ilə müqayisə edən M.Mansurov tanınmış musiqiçi Cavan Zeynallının sözlərini xatırladıb. O, cazı dinləməyi necə öyrənmək barədə suala cavabında, ilk növbədə, onu çox dinləməyi tövsiyə edib. Xalq artistinin fikrincə, muğam üçün də eyni yol keçərlidir. "Muğamı sevmək üçün əvvəlcə onu dinləmək lazımdır. Çox dinləmək - günlərlə, aylarla. O zaman onu sevməyə başlayırsan. Sonra ayrı-ayrı səsləri ayırd etməyə başlayırsan. Beləliklə, insan özü də fərqinə varmadan bu musiqini mənimsəyir", - deyə o bildirib.

M.Mansurov ifaçılıqda müasir tendensiyalara, eləcə də gənclərin muğama münasibətinə ayrıca toxunub. Onun sözlərinə görə, bu gün gənc musiqiçilər dünya musiqisinin müxtəlif janr və istiqamətləri ilə tanış olur, bəzi elementlər isə onların muğam ifasındakı təfsirində də öz əksini tapır. "Gənc ifaçıların yaradıcılığında yeni yanaşmalar hiss olunur. Onlar dünya musiqisindən ayrı-ayrı elementləri götürərək muğamda tətbiq edə bilərlər. Mən buna normal yanaşıram. Gənc insan öyrənir, öz yolunu axtarır. Zaman keçdikcə hər bir ştrixə və hər bir musiqi parçasına daha çox məna verməyə başlayır. Əsas odur ki, ifada fikir və məntiq olsun", - deyə Xalq artisti qeyd edib.

# Şükürbəylidə daha 15 ailəyə evlərinin açarları təqdim olunub





**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.



Bu gün növbəti köç karvanı ilə Cəbrayılın Şükürbəyli kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Beləliklə, uzun illər həsrətlə doğma yurda qayıdışı gözləyən insanlar üçün Şükürbəylidə yeni həyat başlayıb. Burada həyata keçirilən quruculuq işləri "Böyük qayıdış" proqramının uğurlu icrasının daha bir nümunəsidir. Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

İşğaldan azad olunan Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

Bu gün Şükürbəyli kəndi 15 ailə olmaqla 86 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə qədəm qoyub və doğma yurdlarında yaradılan gözəlliyi seyr ediblər.

Qeyd edək ki, hər iki kənd yenidən qurulub və sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb.

Şükürbəyli kəndində hər biri 80 yerlik olmaqla iki körpələr evi-uşaq bağçası, 360 şagird yerlik məktəb binası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi, həmçinin yerli icra strukturları üçün inzibati bina tikilib. Bununla yanaşı, 35/10 kV-luq elektrik yarımstansiyası inşa olunub, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, internet və "İP TV" şəbəkələri yaradılıb, kənddaxili yollar asfaltlanıb. İlkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçün ayrılıb. Müasir üslubda inşa olunan evlər 2, 3, 4 və 5 otaqlıdır.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# Yeni dərs ili ərəfəsində Samuxda şəhid övladları ilə görüş keçirilib

**Samux Rayon İcra Hakimiyyətində yeni tədris ilinin başlanması ərəfəsində şəhid övladları ilə görüş keçirilib. Görüşdə çıxış edən RİH-in başçısı Firdovsi Əliyev şəhid övladlarını yeni tədris ilinin başlanması münasibətilə təbrik etmiş, onlara təhsildə uğurlar və sağlam gələcək arzulamışdır.**



Bildirmişdir ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəmanlarımızın göstərdiyi şücaət və fədakarlıqlar gələcək nəsillər üçün vətənpərvərlik nümunəsidir. Şəhid övladlarının yüksək təhsil alması, hərtərəfli inkişaf etməsi və cəmiyyətdə layiqli vətəndaş kimi yetişməsi dövlətimizin və cəmiyyətimizin əsas diqqət mərkəzində olan məsələlərdəndir.

Görüşdə o da vurğulanmışdır ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinə və qazilərə göstərilən dövlət qayğısı davamlı xarakter daşıyır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqət və qayğısı sayəsində şəhid ailələrinin sosial-məişət problemlərinin həlli, onların rifahının yüksəldilməsi, şəhid övladlarının təhsil və digər ehtiyaclarının qarşılanması istiqamətində mühüm tədbirlər həyata keçirilir.

Öz arzu və təəssüratlarını bölüşən şəhid övladları dövlət qayğısını hər zaman hiss etdiklərini söyləmiş və ailələrinin övladları göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər.

Sonda şəhid övladlarına məktəbli formaları və tədris ləvazimatları təqdim olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm

*Qonşumla iki ildir torpaq üstündə mübahisə yaşayıram. Bununla bağlı məhkəməyə müraciət etməyimi məsləhət gördülər. Lakin təcrübəm olmadığı üçün hansı sənədləri hazırlayacağımı və məhkəməyə necə ərizə yazacağımı bilmirəm. Vəkilə isə ödəmək üçün yetəri qədər vəsaitim yoxdur, çünki işsizəm. Bu halda nə edə bilərəm?*

***Əli MƏMMƏDOV,***
***Dübəndi qəsəbəsi***

✓ Sualınıza cavab olaraq bildiririk ki, qarşılaşdığınız mübahisə, yəni torpaq mübahisələri həm mülkiyyət hüququ, həm də texniki sərhəd müəyyənləşdirilməsi baxımından mürəkkəb kateqoriyalı mülki işlər sırasına daxildir.

Sizin vəkilin hüquqi yardım xidmətindən istifadə üçün maddi imkanınızın olmaması hüquqlarınızı müdafiə etməyə mane olmamalıdır. Çünki qüvvədə olan qanunvericilik bu cür hallar üçün pulsuz hüquqi yardım mexanizmləri nəzərdə tutur. Belə ki, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinin I hissəsinə əsasən, Vəkillər Kollegiyasına üzv olduğu dövrdə vəkil normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada və hallarda hüquqi yardım haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına hüquqi yardım göstərməlidir.

Normativ hüquqi aktlara gəlincə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67-1.2-ci maddəsinə əsasən, birinci və apellyasiya instansiya məhkəmələrində mülki işlər üzrə məhkəmə icraatında maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin dövlət hesabına vəkil ilə təmin olunması məsələsini məhkəmə həll edir. Bu işlərə, məhkəməyə müraciət etmək üçün hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin müraciətinə əsasən vəkil qurumunun ərizəsi əsasında həmin qurumun yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi, məhkəmə icraatı zamanı isə işdə iştirak edən şəxsin yazılı müraciəti əsasında işə baxan məhkəmə tərəfindən baxılır.

Göründüyü kimi, sizin qarşılaşdığınız çətinliklə bağlı peşəkar hüquqi yardıma ehtiyacınız var, lakin bunun üçün kifayət qədər vəsaitiniz yoxdur, o zaman dövlət hesabına vəkil ilə təmin olunma ilə bağlı vəkil qurumuna müvafiq ərizə ilə müraciət etməlisiniz. Ərizənizə qarşılaşdığınız çətinliklə bağlı müvafiq sənədləri, xüsusilə vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilmə ilə bağlı müvafiq sənədi əlavə etməyiniz zəruridir.

Nəzərə alın ki, müraciət etdiyiniz vəkil qurumu bununla bağlı müvafiq rayon (şəhər) məhkəməsinə müraciət edir. Məhkəmə bu ərizəyə daxil olduğu vaxtdan 15 gün müddətində baxmalıdır. Əgər müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlıdırsa, işə təxirə salınmadan, lakin növbəti iş günündən gec olmayaraq baxılır.

Məhkəmə Mülki Prosessual Məcəllənin 67-1.4-cü maddəsində göstərilən şəxslərin, habelə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan digər iş baislərinin hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və bu ödənişin dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi (yaxud bundan imtina edilməsi) barədə əsaslandırılmış qərardad qəbul edir.

Mülki Prosessual Məcəllənin 67-1.4-cü maddəsində göstərilən şəxslərin dairəsinə isə aşağıdakılar daxildir:

1. Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən şəxslər, eləcə də əlilliyi olan uşaqlar;
2. İnsan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;
3. Valideyn himayəsindən məhrum olunmuş uşaqlar;
4. Ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
5. Müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər;
6. Maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər.

Məhkəmənin dövlət hesabına vəkillə təmin olunma barədə qərardadı icra edilməsi üçün Vəkillər Kollegiyasına daxil olur və müvafiq qaydaya uyğun olaraq sizə peşəkar hüquqi yardım göstərmək məqsədilə vəkil təyin edilir.

Məhkəməyə təqdim edilməsi üçün iddia ərizəsinin yazılması, eləcə də iddia ərizəsinə əlavə edilən sənədlərin dairəsinə gəlincə, təyin olunmuş vəkil bu istiqamətdə sizə zəruri hüquqi yardım göstərməlidir.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


## BİLDİRİŞ

"İpək Yolu Sığorta" ASC (VÖEN 9900002671) öz daimi fəaliyyət ünvanının dəyişdiyini elan edir.

***Cəmiyyətin yeni ünvanı:***

**Bakı şəhəri, AZ 1014, Rəsul Rza küçəsi 75, Winter Park Plaza, 8-ci mərtəbə, ofis 802**



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


## BEYNƏLXALQ HƏYAT

# Donald Tramp: "Rusiyanın NATO ölkələrinə hücumundan rahatsız deyiləm"

**ABŞ Prezidenti Donald Tramp Rusiyanın NATO ölkələrinə hücumundan rahatsız olmadığını bildirib. Bu onun müttəfiqlərin Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Retkliffin Moskvaya gizli səfəri ilə bağlı nigarançılığına cavabı olub.**



Alyans hesab edir ki, Retkliff Kremli NATO ölkələrinə qarşı təxribatlar barədə xəbərdar etmək üçün təcavüzkar ölkəyə səfər edib. Bu barədə "Axios" nəşri jurnalistlərlə Donald Tramp arasında telefon danışığından sonra məlumat verib. Amerika Prezidenti Retkliffin səfər zamanı Moskvaya xəbərdarlıq etdiyini təkzib edib.

D.Trampın sözlərinə görə, Rusiya Şimali Atlantika Alyansının ərazisinə hücum etməyəcək: "Putinin NATO ərazisinə hücum etmək niyyəti yoxdur".

D.Trampın mövqeyi ABŞ-nin Avropa müttəfiqləri arasında artan rahatsızlıq fonunda ortaya çıxıb. Avropa liderləri açıq şəkildə xəbərdarlıq ediblər ki, Moskva NATO-nun üzvlərini müdafiə etməyə hazırlığını, xüsusən də məhdud hücum və ya digər hərbi təxribatlar vasitəsilə sınamağa cəhd edə bilər.

ABŞ Prezidentinin dediyinə görə, MKİ direktoru Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin ilə görüşüb. O, MKİ direktorunun səfərini "adi iş" adlandırıb və burada qeyri-adi bir şey görmədiyini bildirib: "Retkliff rusiyalı həmkarı ilə hər altı aydan bir və ya ildə bir dəfə görüşür. Onların çox yaxşı münasibətləri var. Görüş zamanı heç bir xəbərdarlıq olmayıb və qeyri-adi bir şey baş verməyib". Bununla D.Tramp ABŞ-nin Retkliffin səfərindən Rusiyanı NATO ölkələrinə qarşı potensial hərəkətlərdən çəkindirmək üçün istifadə edə biləcəyi barədə məlumatları faktiki olaraq təkzib edib.

Rusiya öz növbəsində ABŞ liderini dəstəkləyib və hadisələrlə bağlı onun versiyasını təsdiqləyib. Sergey Narışkinin sözlərinə görə, danışıqlar "işlərinin adi bir hissəsi" idi və görüş zamanı "qeyri-adi heç bir şey" baş verməyib. S.Narışkin həmçinin tərəflərin "kəşfiyyat məsələlərini" müzakirə etdiyini bildirib. O, danışıqların digər detallarını açıqlamayıb.

# "Bosniya qəssabı" Ratko Mladiç öldü

## O, soyqırımı ittihamı ilə Haaqada ömürlük həbs cəzası çəkirdi

**Bosniya serb ordusunun soyqırımında ittiham olunan keçmiş baş qərargah rəisi Ratko Mladiç Haaqada BMT-nin saxlanma mərkəzində ölüb. Bu barədə Serbiyanın RTS televiziya kanalı məlumat yayıb.**



84 yaşlı Mladiç ömürlük həbs cəzası çəkirdi. Aprel ayında vəkilləri onun səhhətinin pisləşməsini əsas gətirərək vaxtından əvvəl azadlığa buraxılması üçün ərizə vermişlər. Serbiyanın ədliyyə naziri Nenad Vujiç də Mladiçin azadlığa buraxılmasını istəyib. Mladiç 2 il həbsxana xəstəxanasında çarpayıda və əlil arabasında olub. Vəkillərinin sözlərinə görə, oğlu Darko ilə videozəng zamanı Mladiçin səhhəti daha da pisləşib.

Ratko Mladiç 1992-ci ildən 1995-ci ilə qədər Serb Respublikası ordusunun baş qərargah rəisi olub. 2011-ci ilin mayında o, Serbiyada saxlanılıb və hakimiyyət orqanları tərəfindən Haaqaya ekstradisiya olunub. 2017-ci il noyabrın 22-də Haaqa Tribunalı onu 1992-1995-ci illər Bosniya və Herseqovina Vətəndaş müharibəsi zamanı törətdiyi müharibə cinayətlərinə görə ömürlük həbs cəzasına məhkum edib.

1995-ci ildə onun komandanlığı altında serb ordusu Srebrenitsada təxminən 8000 Bosniya müsəlmanını qətlə yetirib. Bundan sonra Mladiçə "Bosniya qəssabı" ləqəbi verilib.

Bundan əlavə, Mladiç Sarayevonun 1992-ci ilin aprelindən 1996-cı ilin fevral ayının sonuna qədər davam edən mühasirəsi zamanı mülki şəxsləri öldürməkdə ittiham olunurdu. 2010-cu ildə isə Mladiçin gündəlikləri aşkar edilib və "Repubblica" qəzetinin məlumatına görə, o, əsas işinin müsəlman əhalisindən qurtulmaq olduğunu yazıbmış.

Tribunal onu soyqırımı, müharibə cinayətləri və insanlığa qarşı cinayətlərdə təqsirli bilib.

***Hazırladı:***
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfova qardaşı geologiya-mineralogiya elmləri doktoru, professor

**AYVAZ XƏLƏFLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əli, Rafiq və Nail Hüseynovlar, Ağamirzə Dünyamalıyev, Ramiz Saraclı, Əlövsət Əliyev, İlham İbrahimov, Hidayət İsmayılov və İlham Həsənov Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Aparatının Baş idarə rəisinin müavini Elmar Məmmədova əzizi

**ƏHSƏN FƏTULLA OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əli, Rafiq və Nail Hüseynovlar, Ağamirzə Dünyamalıyev, Ramiz Saraclı, Əlövsət Əliyev, İlham İbrahimov, Hidayət İsmayılov və İlham Həsənov II Qarabağ müharibəsinin veteranı, ehtiyatda olan polkovnik, "Zəfər" ordenli Samir Məmmədova əzizi

**ƏHSƏN FƏTULLA OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3316
Sifariş 1089

Qiyməti 60 qəpik